QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 069 (5789) **18 aprel** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Xalq öz Prezidentinə güvənir!

*“Opinion Way” şirkətinin sorğusunun nəticəsi bugünkü Azərbaycan reallığıdır*



Səh 3

4

Azərbaycan ilə Çin arasında texniki yardım sahəsində əməkdaşlığa dair Saziş imzalanıb



4

“Beynəlxalq konfransın yüksək şəkildə keçirilməsinə nail olacayıq”



12

Paşinyan populist bəyanatlar girdabında...



# "Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır"

## *Azərbaycan Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibə verib*

***Aprelin 17-də Çinin Sinxua agentliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsini dərc edib. AZƏRTAC müsahibəni təqdim edir.***

-Ötən il Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 26-cı ildönümü qeyd edilib. Cənab Prezident, Siz Azərbaycan-Çin münasibətlərinin hazırkı vəziyyətinə dair nə deyə bilərsiniz? Azərbaycanın xarici siyasətində Çinlə bağlı mövqeyi necədir?

-1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çinə səfər etdi və həmin səfər ölkələrimiz arasında ikitərəfli münasibətlərin təməlini qoydu. Həmin vaxtdan bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Azərbaycan və Çin dost ölkələrdir. Mənim Çinə 2005-ci ildəki rəsmi və 2015-ci ildəki dövlət səfərlərim ikitərəfli münasibətlərimizi inkişaf etdirmək və dərinləşdirməklə yanaşı, birgə iradəmizi bir daha təsdiq etdi.

Fəal siyasi təmaslarımız mövcuddur. Eyni zamanda, iqtisadiyyat sahəsində də fəal əməkdaşlığımız var. Azərbaycan Çinin təşəbbüsünə qoşularaq, Asiya İnfrastruktur İnvestisiya Bankının həmtəsisçisi olub. Bir sıra Çin şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir və biz daha çox Çin şirkətlərini ölkəmizdə investor, ticarətçi və podratçı qismində görmək istəyirik. Azərbaycanda çox münbit sərmayə mühiti olduğundan biz sənaye istehsalı, informasiya texnologiyaları, kənd təsərrüfatı və bir sıra digər sahələrdə daha çox Çin şirkətlərini görməyə ümid edirik.

Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müsbət dinamika mövcuddur. Bizim ticarət dövriyyəmiz 1,3 milyard dollar təşkil edir. Çindən idxal 40 faiz artıb. Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılmışdır. Azərbaycan Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər. Çinin İKT şirkətləri də ölkəmizdə uğurla fəaliyyət göstərirlər.

Humanitar sahədə əməkdaşlığımızın yaxşılaşdırılması münasibətlərimizin inkişafında vacib rol oynaya bilər. Düşünürəm ki, təhsil sahəsində daha fəal əməkdaşlığa ehtiyac var.

Azərbaycan özünün turizm sənayesinin inkişafına böyük diqqət ayırır və biz son illər bu istiqamətdə mühüm uğurlar əldə etmişik. Azərbaycana səfər edən Çin turistlərinin sayında 53 faiz artım var. Azərbaycan Çin vətəndaşları üçün sadələşdirilmiş viza proseduru tətbiq edir. Vizanı Azərbaycanın beynəlxalq hava limanlarında əldə etmək olar. Azərbaycan və Çin arasında müntəzəm birbaşa uçuşlar həyata keçirilir.

Çinlə əlaqələr bizim xarici siyasətimizin prioritetlərindəndir. Əminəm ki, qarşıdan gələn illərdə Azərbaycan ilə Çin arasında mövcud olan dostluq əlaqələri xalqlarımızın tərəqqisi və rifahı naminə uğurla inkişaf edəcək və güclənəcəkdir.

-Sizin 2015-ci ildə Çinə səfəriniz zamanı Azərbaycan və Çin arasında "İpək Yolu İqtisadi Kəməri"nin reallaşdırılmasına dair



Anlaşma Memorandumu imzalandı. Son illər ərzində "Bir kəmər, bir yol" layihəsi çərçivəsində iki ölkə tərəfindən əldə edilən irəliləyişi necə qiymətləndirirsiniz? "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycan-Çin əməkdaşlığı üçün hansı sahələr prioritet təşkil edəcəkdir?

-Mənim 2015-ci ildə Çinə səfərim zamanı bir çox mühüm sənədlər imzalanmışdır. Bunların sırasında iki ölkə arasında imzalanmış "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu da var idi. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var.

Biz dəmir yolu infrastrukturumuzun müasirləşdirilməsinə sərmayə yatırırıq. Ötən ilin may ayında biz Xəzər dənizində 15 milyon ton yükaşırma qabiliyyətinə malik yeni beynəlxalq liman istifadəyə verdik. Ehtiyac olduğu təqdirdə, onun imkanları 25 milyon tona qədər artırıla bilər. Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Çindən Avropaya və geriyə yük daşımaları üçün ən qısa nəqliyyat marşrutudur. 2018-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə 19 qatar yük daşınmışdır.

Coğrafi yerləşməmizdən istifadə edərək, biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək Yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürüb.

-Bildiyiniz kimi, bu ay Pekində "Bir kəmər, bir yol" üzrə ikinci Beynəlxalq Əməkdaşlıq Forumu keçiriləcəkdir. Əməkdaşlığın dərinləşdirilməsi və bəşəriyyət üçün birgə gələcəyin qurulması baxımından bu layihə ilə bağlı gözləntiniz nədən ibarətdir?

-Əminəm ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır. Bu layihələr geosiyasi vəziyyətə təsir edir, sabitliyə və proqnozlaşdırıla bilməyə töhfə verir və qarşılıqlı asılılıq yaradır. Qonşularsız biz tranzit ölkəyə çevrilə bilmərik. Yəni, bu, dövlətlərdən ibarət zəncirdir və biz Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərindəyik. Bununla da biz qitələri və ölkələri birləşdirir və daha da proqnozlaşdırıla bilən gələcək qururuq.

"Bir kəmər, bir yol" təşəbbüsü ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirə, sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfə verə bilər. Bu layihə mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsi, ölkələrin çiçəklənməsi və xalqlararası təmasların təşviqi kimi nəcib ideyalara xidmət edir. Ümid edirəm ki, "Bir kəmər, bir yol" üzrə ikinci Beynəlxalq Əməkdaşlıq Forumu bu istiqamətdə növbəti addım olacaq və məhsuldar müzakirələrin aparılması üçün yaxşı imkan yaradacaq.

-Bu il Çin Xalq Respublikasının yaradılmasının 70-ci ildönümü qeyd olunur. Son illər ərzində Çinin inkişafını necə qiymətləndirirsiniz?

-Əsrlər boyu Çin xalqı özünün qədim tarixi ənənələri və zəngin mədəniyyəti ilə bəşər sivilizasiyasının inkişafına töhfəsini verib. Çin Xalq Respublikası yarandığı tarixdən böyük inkişaf yolu keçib. Çin rəhbərliyinin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkə misilsiz nailiyyətlər əldə edib. Güclü iqtisadi inkişaf, ölkədaxili sabitlik və təhlükəsizlik, əhalinin yüksələn rifahı bunun aydın göstəricisidir. Biz Azərbaycanda Çinin müxtəlif sahələrdə əldə etdiyi böyük nailiyyətləri maraqla izləyirik.

Əminəm ki, Çin inkişaf, firavanlıq və tərəqqi yolu ilə getməkdə davam edəcəkdir. Bu işdə Çin xalqına və onun rəhbərliyinə yeni uğurlar diləyir, Çin Xalq Respublikasının yaranmasının qarşıdan gələn 70-ci ildönümü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1539-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Sumqayıt Şəhər Məhkəməsinin hakimi İlyas Mahmudovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Vidadi İsayevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Qusar rayonunun Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında Sərəncam imzalayıb.

# Xalq öz Prezidentinə güvənir!

## “Opinion Way” şirkətinin sorğusunun nəticəsi bugünkü Azərbaycan reallığıdır



***Azərbaycan Prezidenti İlham Əliyevin son 15+1 ildə ölkəmizin ictimai- siyasi həyatında və həyata keçirdiyi islahat kursuna, hökumətin ümumi daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə “Opinion Way” şirkəti tərəfindən Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycanın bütün bölgələrində geniş rəy sorğusu keçirilib.***

Bu sorğu Prezident İlham Əliyevin yenə də öz seçicilərinin yüksək etimadına malik olduğunu təsdiq etdi. Diqqətə çatdırılıb ki, sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub- saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Respondentlərin fikrinə görə, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Ölkədə etnik, dini və ictimai-siyasi zəmində sabitlik hökm sürüb, ictimaiyyətdə narahatlıq doğuran ciddi hallar müşahidə edilməyib. Məhz bütün bunların nəticəsidir ki, sorğunun “Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz” sualına respondentlərin 85,1 faizi, bütövlükdə, müsbət cavab verib.

### Dövlət proqramları ölkənin uğurlu inkişafının prioritetidir

“Opinion Way”in “İlham Əliyevin qəbul etdiyi “Regionların sosial-iqtisadi inkişaf proqramı” və hökumətin bölgələrdə həyata keçirdiyi fəaliyyət nəticəsində, sizcə regionlar inkişaf edibmi” sualına respondentlərin 93,1 faizi “hə” cavabı verib, 72,3 faizi hökumətin bu istiqamətdəki fəaliyyətini tam müsbət, 20,8 faizi “əsasən, müsbət” kimi dəyərləndirib.

Görünür, belə yüksək nəticə onunla izah edilə bilər ki, keçən il regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü Dövlət Proqramı uğurla başa çatıb, beşillik proqram artıqlaması ilə yerinə yetirilib. Üç proqramın icrası nəticəsində, bölgələrin infrastrukturları müasir standartlara uyğun yenidən qurulub, minlərlə istehsal müəssisəsi, iki milyondan artıq yeni iş yeri açılıb, ayrı-ayrı sahələrin, o cümlədən, qeyri-neft sektorunun əsaslı inkişafına nail olunub. Bu il isə, regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı qəbul edilib və icrasına başlanıb.

Prezident İlham Əliyevin regionların inkişafına xüsusi diqqət göstərməsi həm də vətəndaşların böyük rəğbətini qazanıb. Sorğuda ölkə Prezidentinin bölgələrə çoxsaylı səfərlərinin faydalılıq əmsalı respondentlərin 90,4 faizi tərəfindən müsbət dəyərləndirilib, 48,9 faiz bu səfərləri “çox yüksək”, 27,5 faiz “əsasən, yüksək”, 14 faiz isə “qismən, yüksək” kimi qiymətləndirib.

### İnam və etimadın ifadəsi

Azərbaycanın sosial-iqtisadi inkişafı, regionun liderinə və dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi hakimiyyətin siyasi kursunun dövlətin və xalqın maraqlarını layiqincə təmin etdiyini göstərir. Bu yüksəliş nümunələri həm də təsdiq edir ki, Azərbaycan öz məqsədlərinə uğurla çatan və bütövlükdə, qarşısına qoyduğu hədəflərə doğru inamla irəliləyən dövlətdir. Şübhəsiz, bu dəyişikliklərin və uğurların memarı möhtərəm Prezidentimiz İlham Əliyevdir. Xalqımız dövlət başçımızın fəaliyyətini yüksək dəyərləndirir. Artıq bu danılmaz faktı dünyanın nüfuzlu qurumları da təsdiqləyirlər. “Opinion Way”in “İlham Əliyevin qəbul etdiyi “Regionların sosial-iqtisadi inkişaf dövlət proqramları” və hökumətin bölgələrdə həyata keçirdiyi fəaliyyət nəticəsində, sizcə, regionlar inkişaf edibmi” sualına respondentlərin 93,1 faizinin “hə” cavabı verməsi deyilənlərin real sübutudur. Ən vacib məqamı, xüsusi olaraq, vurğulamaq lazımdır ki, dövlətimizin başçısı həmişə xalqı ilə birbaşa təmasda olub. Təkcə keçən il Prezident İlham Əliyev 24 rayona səfər edib, hər səfərdə də sakinlərlə görüşərək, onları narahat edən məsələlərlə maraqlanıb, onları həll edib. Eyni zamanda, dövlət başçımız insanların sıxıntılı günlərində belə, həmişə xalqının yanında olub. Bununla da, “Mən xalqın xidmətçisiyəm” məramının şüar olmadığını bir daha göstərib.

Bir sözlə, “Opinion Way” şirkətinin keçirdiyi rəy sorğusunun nəticələri də, məhz xalqın bu inam və dəstəyini, həm də xalqiqtidar birliyini bir daha bütün dünyaya nümayiş etdirib.

Bu faktoru da, bir daha vurğulamaq lazımdır ki, Prezident İlham Əliyev 16 illik Prezidentliyi dövründə regionların sosial-iqtisadi inkişafını hər zaman xüsusi diqqət mərkəzində saxlayıb. Bu gün Azərbaycan reallığı ondan ibarətdir ki, dövlət siyasəti Azərbaycan vətəndaşına yönəlib və ölkə vətəndaşının sosial vəziyyətinin yaxşılaşmasına xidmət edir. Məhz belə olduğu üçün istənilən zaman rəy sorğusu keçiriləndə, həmin rəy sorğusu respondentlərin əksər hissəsinin dövlət başçısını və dövlət siyasətini dəstəkləməsi ilə nəticələnir. Çünki istiqamətlənmiş siyasət birbaşa vətəndaşın rifahına yönəlib.

Təbii ki, “Opinion Way” şirkətinin keçirdiyi rəy sorğusu nəticəsində, açıqlanan rəqəmlər, gəlinən qənaət bugünkü Azərbaycan reallığıdır. Bu reallıq da, ondan ibarətdir ki, ölkə vətəndaşları dövlət başçısından, onun yürütdüyü siyasətdən məmnundur. Rəy sorğusunun nəticələri Azərbaycanın bugünkü həyatının bariz göstəricisidir.

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan ilə Çin arasında texniki yardım sahəsində əməkdaşlığa dair Saziş imzalanıb

**Aprelin 17-də Nazirlər Kabinetində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında texniki yardım (qrant) sahəsində əməkdaşlığa dair Saziş imzalanıb. AZƏRTAC xəbər verir ki, Sazişi Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov və Çinin ölkəmizdəki səfiri Vey Cinhua imzalayıblar.**



Baş nazirin müavini Əli Əhmədov Azərbaycan ilə Çin arasında əməkdaşlığın inkişafından danışıb. O deyib ki, yüksək səviyyəli qarşılıqlı səfərlər zamanı bu əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı ətraflı müzakirələr aparılır. Çin Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycan da "Vahid Çin" siyasətini birmənalı şəkildə dəstəkləyir. Azərbaycan Çin Xalq Respublikasının Sədri Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir və bu layihənin həyata keçirilməsində yaxından iştirak edir.

Səfir Vey Cinhua deyib ki, Çin ilə Azərbaycan yaxşı dost və yaxın tərəfdaşdır. Diplomat 2015-ci ildə Prezident İlham Əliyevin Çinə dövlət səfərini xatırladıb, bu səfər çərçivəsində hər iki ölkənin liderləri tərəfindən əməkdaşlıqla bağlı imzalanmış sənədlərin əhəmiyyətini qeyd edib. Səfir vurğulayıb ki, Azərbaycan və Çin rəhbərlərinin dəstəyi ilə ölkələrimiz arasındakı siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq inkişaf edir.

# Dövlət Sərhəd Xidmətinin rəisi "Qazax" sərhəd dəstəsinin xidməti-döyüş fəaliyyətini yoxlayıb



Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin Ermənistanla dövlət sərhədində yerləşən sərhəd döyüş məntəqələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki , Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlərin gedişi, "Qazax" sərhəd dəstəsinin xidməti ərazisindəki əməliyyat şəraiti, müdafiə mövqelərinin möhkəmləndirilməsi, mühəndis-istehkam tədbirlərinin gücləndirilməsi üzrə tapşırıqların icra vəziyyəti haqqında məruzələr dinlənilib.

Dövlət sərhədində müasir sərhəd mühafizə infrastrukturunun formalaşdırılması, sərhəd döyüş məntəqələrində yeni xidməti binaların inşa edilməsi, yeni yolların salınması, sənaye işığının və qaz xətlərinin çəkilməsi məqsədilə görülən işlərlə tanışlıq olub, bu fəaliyyətin gücləndirilməsi üzrə göstərişlər verilib.

Sərhəd döyüş məntəqələrində tikinti-inşaat işlərinin görülməsində fərqləndiklərinə görə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif edilmiş yerli sakinlər Anar Dünyamalıyevə, Səfərəli Abışova, Hüseyn Şahverdiyevə və Zaur Yusifova medallar təqdim olunub, bilavasitə təmas xəttində sərhədçilərlə birgə dövlət sərhədinin mühafizəsi üçün çalışdıqlarına görə minnətdarlıq ifadə edilib.



# "Beynəlxalq konfransın yüksək şəkildə keçirilməsinə nail olacayıq"



***"Ümumiyyətlə, Azərbaycanda milli mənəvi-dəyərlərə çox yüksək qiymət verilir. Azərbaycan dünyada tolerant bir ölkə kimi tanınır". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov ölkəmizdə keçiriləcək "Dünya dini liderlərinin II Bakı sammiti"nin əhəmiyyətindən danışarkən deyib.***

YAP İcra katibinin müavinin sözlərinə görə, Azərbaycanda bütün dinlərə bərabər şəkildə şərait yaradılıb: "Azərbaycan Respublikasının Konstitusiyasında göstərildiyi kimi dilindən, dinindən asılı olmayaraq qeydiyyatdan keçmiş hər hansı bir din azad şəkildə ölkəmizdə fəaliyyət göstərə bilər. Bu məsələ "Dini etiqad azadlığı" haqqında qanunla da tənzimlənir. Təbii ki, Azərbaycanda din dövlətdən ayrıdır və ölkəmiz dünyəvi dövlətdir. Amma bununla yanaşı dövlətimiz həmişə dinin yanındadır. Görürsünüz ki, bütün dinlərlə bağlı olan beynəlxalq konfransların, tədbirlərin əksəriyyəti Azərbaycanda keçirilir. Həmin tədbirlər ölkəmizdə keçirildikdə müxtəlif dinlərin nümayəndələri və rəhbərləri burada iştirak edir. Bildiyiniz kimi, səmavi dinlər deyilən bir anlayış vardır. O dinlərə daxil olan bütün qruplar və fəaliyyəti qanunla qadağan olunmamış digər dinlərin hər biri bu proseslərdə iştirak edirlər. Bakıda dəfələrlə bu cür konfranslar keçirilib.

Xüsusilə qeyd etmək istərdim ki, bu məsələlərdə Heydər Əliyev Fondunun çox böyük rolu vardır. Məscidlərin, dini ocaqların, müqəddəs yerlərin bərpası, tikintisi və əhalinin istifadəsinə verilməsində Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın çox böyük rolu vardır. Buna nümunə olaraq ən qədim məscidlərdən biri olan Şamaxı məscidinin, İmamzadə Kompleksinin bərpa olunub istifadəyə verilməsi, ayrı-ayrı yerlərdə böyük məscidlərin, o cümlədən Cənubi Qafqazın ən böyük məscidi olan Heydər Məscidinin tikilib istifadəyə verilməsini göstərə bilərik. Buna paralel olaraq həm sinaqoqların, kilsələrin, həm də udinalban kilsələrinin tikintisi, bərpası Azərbaycan dövlətinin, xalqının əsas fəaliyyət istiqamətlərindən biridir. Çünki bizim xalq çox tolerant bir xalqdır. Azərbaycanda dinlərə hörmətlə yanaşılır. Baxmayaraq ki, Avropada, dünyanın aparıcı dövlətlərində dinlər arasında müxtəlif konfliktlər, münasibətlərin kəskinləşməsi olduğu bir halda ölkəmizdə bu cür hallar yoxdur və bundan sonra da ola bilməz. O cümlədən Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində də bu sahədə beynəlxalq konfranslar keçirib. Buna misal olaraq, Heydər Əliyev Fondunun Fransada, İtaliyada, Vatikanda keçirdiyi konfransları, Qafqaz Müsəlmanları İdarəsinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, ayrı-ayrı QHT-lərin keçirdiyi tədbirləri göstərə bilərik. Hətta ayrı-ayrı ölkələrdə Azərbaycan dini məbədlərin bərpasında da yaxından iştirak edir və öz töhfəsini verir. O baxımdan da Azərbaycanda bu cür tədbirlərin keçirilməsi mütəmadidir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə də Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun rəhbərliyi altında Komissiya yaranıb. Komissiya yaxın vaxtlarda "Tədbirlər Planı"nı işləyib hazırlayaraq təqdim edəcəkdir. Təbii ki, həmin "Tədbirlər Planı"na uyğun olaraq da biz beynəlxalq konfransın çox yüksək şəkildə keçirilməsinə nail olacayıq".

**Ceyhun Rasimoğlu**

# Teatr sahəsində islahatlar davam edir

## *Dövlət başçısı "Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam imzalayıb*



Mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir. Müasir həyatımızda mədəniyyət və incəsənətin müxtəlif sahələrini əhatə edən növləri ayrı-ayrılıqda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən diqqətdə saxlanılır və onun inkişafına yüksək səviyyədə şərait yaradılır. Uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan peşəkar teatrı da sənət yolunun yeni bir mərhələsini yaşayır. Ulu Öndər Heydər Əliyev ənənələrini uğurla davam etdirən Prezident İlham Əliyevin sərəncamları ilə teatr binaları təmir və bərpa etdirilib, onların dünya teatr səhnəsinə uyğun olaraq, fəaliyyət göstərmələrinə hər cür şərait yaradılıb. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı, Dövlət Rus Dram Teatrı, Dövlət Gənc Tamaşaçılar Teatrı, Dövlət Akademik Milli Dram Teatrı binaları və s. yüksək səviyyədə təmir-bərpa edilib. Prezidentin Sərəncamı əsasında, teatr xadimlərinə xüsusi mükafatlar, fəxri adlar verilir, həyat şəraitləri yüksəldilir. Milli teatrın parlaq bədii irsinin qorunması, teatr sahəsində islahatların aparılması, teatr mədəniyyətinin təbliği və bütövlükdə, Azərbaycan teatr sənətinin inkişafı ilə bağlı silsilə tədbirlər həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən, Azərbaycan teatr ənənələrinin qorunub-saxlanması və dövrün tələblərinə uyğun inkişaf etdirilməsi üçün dövlət büdcəsindən Mədəniyyət Nazirliyinə 1,8 milyon (bir milyon səkkiz yüz min) manat, o cümlədən, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və Azərbaycan Dövlət Kukla Teatrının hər birinə 200,0 (iki yüz) min manat, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Gəncə Dövlət Dram Teatrı, Sumqayıt Dövlət Dram Teatrı, Mingəçevir Dövlət Dram Teatrı, Lənkəran Dövlət Dram Teatrı və Şuşa Dövlət Musiqili Dram Teatrının hər birinə 100,0 (yüz) min manat ayrıldı. Dövlət başçısının "Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 11 mart Sərəncamı ilə dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşları 2019-cu il martın 1-dən orta hesabla 50 faiz artırıldı.

Görülən işlərin davamı olaraq, bu günlərdə "Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan teatr ənənələrinin qorunub-saxlanılması və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 1,2 milyon (bir milyon iki yüz min) manat, o cümlədən, Azərbaycan Dövlət "Yuğ" Teatrı, Azərbaycan Dövlət Pantomima Teatrı, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Şəki Dövlət Dram Teatrı, Ağdam Dövlət Dram Teatrı, Füzuli Dövlət Dram Teatrı, Qazax Dövlət Dram Teatrı, Qusar Dövlət Ləzgi Dram Teatrı, Qax rayonu Gürcü Dövlət Dram Teatrı, Gəncə Dövlət Kukla Teatrı, Qax Dövlət Kukla Teatrı və Salyan Dövlət Kukla Teatrının hər birinə 100,0 (yüz) min manat ayrılıb.

Həyata keçirlən tədbirlər mədəniyyətimizə dövlət tərəfindən göstərilən qayğının analoqu olmadığını bir daha göstərir. Bu gün dövlətin qayğısı ilə əhatə olunan Azərbaycan mədəniyyəti və incəsənəti yeni inkişaf dövrünü yaşayır.

*Zümrüd BAYRAMOVA*

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Şamaxıda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin aprel ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov aprelin 17-də Şamaxıdakı Heydər Əliyev Mərkəzində Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qəbuldan əvvəl Xidmət rəisi, general-leytenant Arzu Rəhimov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar. Qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququnun verilməsi, həlak olmuş övladlarına şəhid statusunun verilməsi, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

On beş vətəndaşın iştirak etdiyi qəbulda bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb. Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Ramiz Rzayev: Problemli kreditlərlə bağlı məhkəmələrdə baxılan işlərin icraatı təxirə salınıb



Problemli kreditlərlə bağlı məhkəmələrdə baxılan işlərin icraatı Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı imzaladığı gündən təxirə salınıb.

AZƏRTAC xəbər verir ki, bunu Ali Məhkəmənin sədri Ramiz Rzayev mətbuat konfransında deyib. R.Rzayev bildirib: "Prezident İlham Əliyevin problemli kreditlərin həlli ilə bağlı imzaladığı Fərman əhalinin sosial-iqtisadi durumunu yaxşılaşdıran mühüm qərardır. Fərman imzalanandan sonra bununla bağlı Ali Məhkəmədə müşavirə keçirmişik, bu sənədin icrası ilə əlaqədar bütün lazımi tədbirlər görülüb, Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birgə işçi qrupu yaradılıb. Fərmandan gələn tələblər yüksək səviyyədə yerinə yetiriləcək". Xatırladaq ki, Prezident İlham Əliyev bu il fevralın 28-də "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb.

# XİN sosial şəbəkədə işğal altındakı ərazilərimizdə qeyri-qanuni fəaliyyətlərə dair məlumatları əks etdirən hesab yaradıb



Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və suverenliyini şübhə altına alan istənilən fəaliyyət Xarici İşlər Nazirliyinin və ölkəmizin diplomatik nümayəndəliklərinin diqqət mərkəzindədir. Bu kimi fəaliyyətlər daim izlənilir və onların qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu xüsusda nazirlik tərəfindən "Twitter" sosial şəbəkəsində Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində aparılan qeyri-qanuni iqtisadi və digər fəaliyyətlərə dair məlumatları əks etdirən "Armenian Occupation Watch" (https:// twitter.com/ArmenOccupWatch) adlı hesab yaradılıb. Həmin hesabda bir sıra xarici dövlətlərdə qeydiyyatdan keçmiş hüquqi və fiziki şəxslərin ölkəmizin işğal edilmiş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətə cəlb olunması ilə bağlı məlumatlar, faktlar və fotoşəkillər yerləşdirilir.

Paylaşılan məlumatlarda xarici fiziki və hüquqi şəxslər tərəfindən ölkəmizin suverenliyi və ərazi bütövlüyünün pozulması halları, xüsusilə işğal olunmuş ərazilərdə birbaşa və ya dolayısı ilə qeyri-qanuni fəaliyyətin həyata keçirilməsi diqqətə çatdırılır və bu fəaliyyətə son qoyulmasına çağırış əks olunur.

# "Naxçıvanda bir sıra sahələrdə uğurlu nəticələr qazanılıb"



Dördüncü dəfədir ki, Naxçıvana səfər edirəm. Bizi burada həmişə qonaqpərvərliklə qarşılayırlar. Naxçıvana səfərimizin məqsədi Azərbaycan Mikromaliyyə Assosiasiyasının icra etdiyi "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsinin açılışında iştirak etməkdir. Bir il müddətində davam edəcək layihənin məqsədi əsas diqqəti qadınlara və digər həssas qruplara yönəltməklə, Azərbaycanda rayon və kənd icmalarının mikromaliyyələşdirmə xidmətlərinə çıxışını yaxşılaşdırmaqdır. Bu sözləri AZƏRTAC-Naxçıvan bürosuna müsahibəsində Naxçıvan Muxtar Respublikasında səfərdə olan Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas deyib. "Layihə qadın sahibkarlara kömək məqsədi daşıyır, onların öz kiçik bizneslərini inkişaf etdirməsinə səbəb olacaq, burada mövcud olan ənənəvi sənətkarlığın təbliğinə şərait yaradacaqdır", - deyən Kestutis Yankauskas bildirib ki, bütün bunlar, ilk növbədə, kiçik və orta sahibkarlığın inkişafına və Naxçıvanın turizm məkanı kimi təbliğ olunmasına gətirib çıxaracaqdır. Bu layihə 300-dən artıq qadının səlahiyyətləndirilməsini dəstəkləmək üçün Avropa İttifaqının Naxçıvanda maliyyələşdirdiyi ilk layihədir. Ümidvaram ki, biz gələcəkdə də birgə layihələr həyata keçirəcəyik.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri deyib: Çalışacağıq ki, gələcəkdə daha çox turist cəlb etmək imkanına malik bir neçə kənddə olaq. Naxçıvanda bir sıra sahələrdə uğurlu nəticələr qazanılıb.



## Azərbaycanın və Polşanın xarici işlər nazirlərinin görüşü olub

Polşa Respublikasına səfəri çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov bu ölkənin xarici işlər naziri Yaçek Çaputoviç ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə nazirlərin təkbətək görüşü olub. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesi haqqında məlumat verən nazir Elmar Məmmədyarov münaqişənin beynəlxalq hüququn prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinin vacibliyini diqqətə çatdırıb. Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılmasının zəruriliyini vurğulayan nazir Elmar Məmmədyarov Polşanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyinə görə həmkarına təşəkkürünü bildirib.

Eyni zamanda, Azərbaycanın iştirakı və təşəbbüsü ilə həyata keçirilən mühüm enerji və infrastruktur layihələri haqqında məlumat verən nazir Elmar Məmmədyarov bu xüsusda Cənub Qaz Dəhlizinin əhəmiyyətini diqqətə çatdırıb. Eləcə də Trans-Xəzər və Cənub-Qərb nəqliyyat dəhlizləri haqqında danışan nazir Elmar Məmmədyarov Azərbaycanın Polşa ilə bu istiqamətdə əməkdaşlıq etdiyini və bu münasibətlərin dərinləşdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Nazir Yaçek Çaputoviç iki ölkə arasındakı münasibətlərin hazırkı durumunu yüksək qiymətləndirib. O, Polşanın Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri ilə əməkdaşlığını dəstəklədiyini vurğulayaraq ölkəsinin Azərbaycanla enerji sektorunda əməkdaşlığın inkişafında maraqlı olduğunu xüsusi qeyd edib. Nazirlər iki ölkə arasında qarşılıqlı səfər mübadiləsi, ticarət dövriyyəsinin artırılması və müqavilə-hüquq bazasının genişləndirilməsi kimi məsələləri müzakirə ediblər. Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Daha sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

## "Bakı və İrəvan arasındakı razılaşmalar kağız üzərində qalmayacaq"

"Moskva hesab edir ki, Bakı və İrəvan arasında Dağlıq Qarabağ münaqişəsinin əlli ilə bağlı son razılaşmaları yalnız kağız üzərində qalmayacaq". SİA xəbər verir ki, Rusiya XİN-nin rəhbəri danışıqların nəticəsi barədə serbiyalı həmkarı İvits Daçiçlə görüşü zamanı bəyan edib. "Aprelin 15-də Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşlərinin nəticələrinə və həmin görüşdəki atmosferi hiss etdiyimə görə, məndə belə bir əsasa yaranıb ki, Bakı və İrəvan bu dəfə əldə edilmiş razılaşmaların kağız üzərində qalmaması marağındadırlar" deyə qeyd edən Lavrov bu məsələnin realizə olunmasına kömək edəcəklərini də deyib.



*Rövşən*

# Prezident Kitabxanasının "Bakı" elektron resursu istifadəçilərə təqdim edilib




Bakı müstəqil Azərbaycan Respublikasının paytaxtı, böyük elmi-mədəni və sənaye mərkəzidir. Bakı qədimliyinə, ərazinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qədim və ən böyük şəhərlərindən biridir. Harada doğulmasından, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı Bakını özünün doğma şəhəri hesab edir. Şəhərin Abşeron yarımadasında coğrafi-strateji mövqedə yerləşməsi və zəngin karbohidrogen ehtiyatlarına malik olması onun keçmişlə müasirliyin vəhdətində meqapolis kimi formalaşmasına səbəb olub.

Bakı hələ şəhər infrastrukturunun formalaşmasından öncə də regionda marağı olan dövlətlərin, səyyahların və missionerlərin diqqətini cəlb edib. Bakı qədim dövrdən yaşayış məntəqəsi kimi məşhurlaşıb, orta əsrlərdən etibarən şərq-qərb, şimal-cənub nəqliyyat dəhlizinə çevrilib, tranzit liman şəhəri kimi formalaşıb. Müxtəlif dövrlərdə Şirvanşahlar dövlətinin, Bakı xanlığının, Bakı quberniyasının, Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Sovet Sosialist Respublikasının paytaxtı olub.

Dünyanın paytaxt şəhərləri arasında özünəməxsus yeri olan və multikultural dəyərlərin qorunub saxlanıldığı Bakı şəhəri müstəqil Azərbaycan dövlətinin paytaxtı kimi sürətlə inkişaf edib, müasir memarlıq abidələri ilə daha da zənginləşib. Paytaxt Bakı bu gün müxtəlif ölkələrdən gələn turistlərin və iş adamlarının daha çox bəyəndikləri bir məkana çevrilib. Bakıda bir çox dövlətlərin diplomatik korpusları, beynəlxalq təşkilatların və xarici şirkətlərin nümayəndəlikləri yerləşir. İstər Azərbaycan vətəndaşları, istərsə də xaricdən ölkəmizə gələn qonaqlar Bakı haqqında daha ətraflı məlumat əldə etmək istəyirlər.

İstifadəçilərin bu informasiya tələbatını nəzərə alaraq, Bakı şəhərinin tarixi keçmişi, müasir vəziyyəti haqqında onlara dolğun, sistemli və dəqiq məlumatın çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşları Azərbaycan, ingilis və rus dillərində "Bakı" elektron resursunu işləyib hazırlayıblar. Prezident Kitabxanasından AZƏRTAC-a bildirilib ki, bu kitabxananın fondlarına daxil olan materiallardan istifadə edilməklə hazırlanan resursun kontenti 10 fəsildən, 40 bölmədən ibarətdir.

2019-cu il aprelin 17-də kitabxananın saytında yerləşdirilən elektron resursun 14 bölmədən ibarət birinci fəsli "Tarix" adlanır. Bu fəsildə Bakı tarixinin ən qədim dövrdən günümüzə qədər bütün mərhələləri xronoloji ardıcıllıqla ayrı-ayrı mətnlərdə istifadəçilərin nəzərinə çatdırılır. Həmin fəslin "Səyyahlar Bakı haqqında" bölməsində müxtəlif vaxtlarda Abşeron yarımadasında və Bakıda olmuş səyyahların şəhər haqqında təəssüratları öz əksini tapır.

Resursun ikinci fəsli "Paytaxt" adlanır və 8 bölmədən ibarətdir. Həmin bölmələrdə Bakı şəhərinin inzibati-ərazi bölgüsü, əhalisi haqqında dolğun məlumat verilib, şəhərin iqtisadiyyatı, təhsil, mədəniyyət, turizm və idman sahələri ayrı-ayrılıqda təhlil edilib. Bu fəsildə, həmçinin Bakı şəhərinin rəmzləri və atributları haqqında materiallar tarixi ardıcıllıqla işıqlandırılıb.

"Bakı" elektron resursunun "Memarlıq" adlanan fəsli 5 bölmədən ibarətdir. Bu fəsildə Bakının qədim dövrlərdən başlamış müstəqillik dövrü də əhatə olunmaqla şəhər memarlığının inkişaf mərhələləri xronoloji ardıcıllıqla əks etdirilib. Bakının ən qədim hissəsi olan İçərişəhər və onun dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələri haqqında bu fəsildə əyani təsvirlərlə ayrı-ayrılıqda məlumat verilib. XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakının bir sənaye şəhəri kimi formalaşdığı dövrün memarlığına ayrıca bölmə həsr edilib. Sovetlər dövründə Bakı şəhərinin görkəmi bir sıra nadir memarlıq inciləri ilə daha da zənginləşib. Bakı memarlığının həmin dövrü də ayrıca bölmədə işıqlandırılıb. Bu fəslin "Müstəqillik dövrü" adlanan növbəti bölməsində müasir və eyni zamanda, özündə milli xüsusiyyətləri birləşdirən yeni yaşayış komplekslərinin salınması, parkların, inzibati və ictimai binaların inşa edilməsi, yeni-yeni memarlıq abidələrinin ucaldılması haqqında ətraflı məlumat verilib. Həmin fəslin sonuncu bölməsi "Köhnə və yeni adlar" adlanır. Bu bölmədə köhnə Bakının küçələrinin və meydanlarının müasir adlarla qarşılığını özündə əks etdirən siyahı oxuculara təqdim edilir.

Resursun növbəti fəsli "Sənədlər" adlanır. Bu fəsildə Bakının tarixinə dair sənədlər "Orta əsrlər", " Rusiya imperiyası dövrü", "Xalq Cümhuriyyəti dövrü", "Sovetlər dövrü" və "Müstəqillik dövrü" adlanan bölmələrdə toplanıb.

"Xronologiya" adlanan fəsildə qədim dövrdən bu günümüzə qədər Bakının tarixində baş vermiş mühüm hadisələrin qısa xronologiyası öz əksini tapıb. Resursun növbəti fəsli "Görkəmli şəxslər" adlanır. Bu fəsildə Bakıda doğulan, ölkə və dünya miqyasında dövlətçilik, elm və texnika, mədəniyyət, incəsənət, idman və digər sahələrdə xüsusi xidmətləri olan şəxslər haqqında qısa bioqrafik məlumatlar əlifba sırası ilə verilib.

"E-Resurslar" fəslinin "E-kitablar" bölməsində Bakı şəhərinin tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, memarlığına, görkəmli bakılılara aid kitabxananın fonduna daxil olan müxtəlif dillərdə 120-yə yaxın kitabın elektron versiyaları toplanıb. Həmin kitabların bir qismi kitabxananın Nadir ədəbiyyat fondunda saxlanılır və XX əsrin əvvəllərində nəşr edilib. "E-məqalələr" bölməsində isə Azərbaycan, rus və ingilis dillərində Bakı şəhərinə aid 166 məqalənin elektron versiyası istifadəçilərə təqdim edilir. Resursun "Biblioqrafiya" fəslində Prezident Kitabxanasının fondlarına daxil olan Bakı şəhərinə aid müxtəlif dillərdə 530 kitabın biblioqrafik təsvirləri toplanıb.

"Bakı" elektron resursunun maraqlı fəsillərindən biri də "Fotoqalereya" adlanır. Bu fəsildə 100-dən çox nadir şəkil "Köhnə Bakı" və "Müasir Bakı" başlıqları altında istifadəçilərə təqdim edilir. "Videoqalereya" adlanan sonuncu fəsildə köhnə və müasir Bakıya həsr olunmuş sənədli filmlər toplanıb. http://bakucity.preslib.az ünvanında təqdim edilən elektron resursun materialları mütəmadi olaraq yenilənilir.

## San-Marinonun yeni təyin edilmiş fəxri konsulu patent sənədini Xarici İşlər Nazirliyinə təqdim edib



Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi səfir Pərvin Mirzəzadə San-Marino Respublikasının yeni təyin edilmiş fəxri konsulu Rasim Qasımov ilə görüşüb. Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Rasim Qasımov fəxri konsul təyinatı ilə əlaqədar patent sənədini Pərvin Mirzəzadəyə təqdim edib. Pərvin Mirzəzadə fəxri konsul Rasim Qasımova gələcək fəaliyyətində uğurlar arzulayıb. Görüşdə Azərbaycan ilə San-Marino arasındakı münasibətlərin cari vəziyyəti barədə geniş fikir mübadiləsi aparılıb.




# “Tolerant Azərbaycan” mövzusunda konfrans keçirilib

***Dünən Bakıda “Tolerant Azərbaycan” mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə keçirilən tədbir Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının fəaliyyətinə həsr edilib.***

Fondun icraçı direktoru Mehman İsmayılov konfransda çıxış edərək ölkəmizdəki dini tolerantlıqdan danışıb. Bildirib ki, Azərbaycanda bütün dinlərə mənsub insanlar birgə sülh, tolerantlıq şəraitində yaşayırlar. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein “Bakı yeparxiyasının tarixi” mövzusunda məruzə ilə çıxış edib. O, Azərbaycanda rus icmasının tarixi və fəaliyyəti barədə fikirlərini bölüşüb.

Sonra Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası İdarəsinin mətbuat katibi, protierey Konstantin Pominov “Müasir dövrdə Bakı yeparxiyası: Dinlərarası dialoq və multikulturalizmin inkişafına dəstək” mövzusunda məruzə edib.

Azərbaycan Kazakları Həmyerlilər Birliyinin atamanının müavini Vadim Suxarev “Azərbaycan Kazakları Həmyerlilər Birliyi və Bakı yeparxiyası: Mənəvi dəyərlər və əxlaq ənənələrinin qorunması və inkişafı üzrə qarşılıqlı əməkdaşlıq” mövzusunda çıxış edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin məsul əməkdaşı Anar Əlizadə Azərbaycanda tarixboyu müxtəlif xalqların nümayəndələrinin qarşılıqlı hörmət şəraitində yaşadıqlarını bildirib. Qeyd edib ki, Azərbaycan dövləti bu tolerant mühiti qoruyur. Ölkəmizdə bütün dinlərə mənsub insanların rahat yaşamaları üçün hər cür şərait yaradılıb. Bütün dünyada ksenofobiyanın, islamofobiyanın hökm sürdüyü bir dövrdə Azərbaycanda sabitlik, əmin-amanlıq var. Biz hər birimiz bu sabitliyi qorumaq üçün səy göstərməliyik.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov tədbirin əhəmiyyətindən danışıb. Bildirilib ki, tədbirdə gənclərin iştirakı xüsusilə əhəmiyyətlidir. Bu, Azərbaycandakı tolerantlıq ənənələrinin qorunub saxlanılması üçün vacib amildir. Konfrans müzakirələr əsasında davam etdirilib.

# Zakir Həsənov NATO generalı ilə görüşüb



Aprelin 17-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının baş direktoru general-leytenant Yan Broeksin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərin NATO-nun yaranmasının 70 illiyi və Azərbaycan-NATO əməkdaşlığının 25-ci ildönümünə təsadüf etdiyini vurğulayan nazir Alyansla əlaqələrin çoxşaxəli olduğunu və bu tərəfdaşlığın yubileyinin qeyd olunmasına dövlət səviyyəsində xüsusi diqqətin ayrıldığını bildirib. Müdafiə naziri NATO-nun ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi siyasi dəstəyi xatırladaraq bunun, ümumilikdə, Avratlantik məkanda təhlükəsizliyin möhkəmlənməsinə, eləcə də regional sülhə və sabitliyə xidmət etdiyini nəzərə çatdırıb. Y.Broeks, öz növbəsində, Azərbaycan-NATO əlaqələrini yüksək qiymətləndirərək sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəni, Alyansın bir çox proqramlarında Azərbaycan hərbçilərinin fəal iştirakını, habelə NATO-nun müxtəlif qərargahlarında xidmət edən zabitlərimizin hazırlığını xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən əməkdaşlıq proqramları və layihələri çərçivəsində əməliyyat hazırlığı, təlimlərin keçirilməsi, hərbi təhsilin inkişafı, qüvvələr arasında qarşılıqlı uzlaşmanın əldə olunması məsələləri müzakirə edilib və əməkdaşlığın inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

# YAP Suraxanı rayon təşkilatının gənclər birliyinin hesabat-seçki konfransı keçirilib





Dünən Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Əvvəlcə konfransda Dövlət Himni səsləndirilib. Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra YAP Suraxanı rayon təşkilatı gənclər birliyinin IV konfransından ötən müddət ərzindəki fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov ölkəmizdə həyata keçirilən dövlət-gənclər siyasətindən, gənclər üçün yaradılan əlverişli şəraitdən danışıb. O bildirib ki, Azərbaycanda dövlət-gənclər siyasətinin təşəkkülü və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycana rəhbərliyinin bütün dövrlərində gənclərə həmişə böyük qayğı göstərib, onların hərtərəfli inkişafına xüsusi diqqət yetirib:”Azərbaycan dövlətçiliyinin müasir tarixinə adını əbədi həkk edən Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, oyanış, müstəqil dövlət quruculuğu dövrü kimi yazılıb. Hazırda ölkəmizin dünya birliyində söz sahibinə çevrilməsinin əsasını, məhz Ulu Öndər Heydər Əliyev qoyub. Bu gün Azərbaycan Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru iri addımlarla inamla irəliləyir”.

Tədbirdə rayon təşkilatının fəal gənclərindən Arzu Həsənzadə, Bayram Bəxtiyaroğlu, Murad Arzuoğlu, Fərəh Məcidzadə çıxış edərək, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət- gənclər siyasətindən, bu siyasətin Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən söz açıblar. Qeyd olunub ki, bu gün ölkəmizdə gənclərlə bağlı kifayət qədər normativ sənədlər mövcuddur. Məlum dövlət proqramları, həyata keçirilən layihələr gənclərin fəallığına stimul verir. Cənab Prezidentin gənclərlə görüşü və gənclərin qarşısında konkret vəzifələr qoyması Azərbaycanın gələcək inkişafının gənclərin əlində olduğunu bir daha təsdiqləyir. Azərbaycan gənclər ordusu da dövlət başçısının etimadını əməli ilə doğrultmalı, öz bilik və bacarıqlarını genişləndirməli, müasir dövrün tələblərinə uyğun olaraq formalaşıb, ölkəmizin inkişafına töhfə verməlidirlər.

Millət vəkilləri Sevinc Fətəliyeva və Şahin İsmayılov çıxış edərək, müasir dövrümüzdə dövlət-gənclər siyasətinin ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşadığını bildirərək, Azərbaycan gəncliyinin ölkənin ictimai-siyasi, həmçinin, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərdiyini, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verdiklərini diqqətə çatdırıblar. Qeyd olunub ki, gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Həyata keçirilən gənclər siyasəti nəticəsində reallaşan sərəncamlar, dövlət proqramları sırf dövlətçiliyimizə sadiq, vətənpərvər, yüksək intellekt sahibi və dünyagörüşlü gənclərin yetişməsinə gətirib çıxarır.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov çıxışında ölkəmizdə gənclərə göstərilən yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də, idman həyatında gənclərin uğurlarından danışıb.

Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin respublikamızın hərtərəfli və sürətli inkişafı naminə həyata keçirdiyi çoxşaxəli və innovativ islahatlar barədə məlumat verib. Sonra o, ölkəmizdə həyata keçirilən dövlət- gənclər siyasətindən, gənclər üçün yaradılan əlverişli şəraitdən danışaraq, Azərbaycanda dövlət-gənclər siyasətinin təşəkkülü və inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Dünyanın heç bir nöqtəsində dövlət tərəfindən gənclərə bu qədər qayğı göstərilmədiyini bildirən İ.Abbasov elm və təhsilin inkişafı ilə bağlı dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin ildən-ilə artırıldığını, bunun tələbə, magistr və aspirantların təqaüdlərində özünü göstərməsini, məhz dövlətin gənclərə diqqətinin bariz ifadəsi olduğunu bildirib.

Qeyd edək ki, konfransda millət vəkili Ağacan Abiyev də iştirak edib. Sonra təşkilati məsələlərə baxılıb. YAP Suraxanı rayon təşkilatı gənclər birliyinin şurasına 23, idarə heyətinə isə 9 nəfərdən ibarət üzv seçilib. Fərəh Məcidzadə təşkilatın gənclər birliyinin sədri, Arzu Həsənzadə, Murad Arzuoğlu və Bayram Bəxtiyaroğlu isə sədrin müavinləri seçiliblər.

Konfransda YAP sıralarına qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqəsi təqdim edilib.

Daha sonra YAP Suraxanı rayon təşkilatının gənclər birliyinin V konfransının iştirakçıları adından Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə müraciət qəbul olunub.

***Zümrüd BAYRAMOVA***

# Tariximizin xanlıqlar dövrünün qiymətləndirilməsinə və siyasi təhlilinə dair fundamental əsər

***Akademik Ramiz Mehdiyevin müəllifi olduğu "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı Azərbaycan tarixşünaslığında, tarixi-fəlsəfi və ictimai-siyasi fikrində xanlıqlar dövrünə daha sistemli, obyektiv və rasional baxışın formalaşmasına imkan yaradan dəyərli, mötəbər elmi-konseptual mənbədir.***




Siyasi elmlər doktoru, Bakı Dövlət Universitetinin professoru Hikmət BABAOĞLUNUN akademik Ramiz Mehdiyevin yenicə çapdan çıxmış "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" əsəri haqqında analitik məqaləsi bu sözlərlə başlayır. AZƏRTAC məqaləni təqdim edir.

Xalqımızın milli yaddaşında beşminillik dövlətçilik şüuru hakimdir. Azərbaycanın zəngin dövlətçilik tarixinin bəzi dövrləri dönüş nöqtəsi sayıla biləcək çox mühüm mərhələləri özündə ehtiva edir. Yəni, dövlətçilik tariximizdə taleyüklülüyü baxımından digər dövrlərdən fərqlənən siyasi dönəmlər - tarixi mərhələlər mövcuddur. Ona görə də milli dövlətçiliyimizin əsaslarına tarixi reallıqların işığında nəzər salmaq və obyektiv, rasional qənaətlərə gəlmək üçün sistemli elmi tədqiqatların aparılması zəruridir. Çünki Azərbaycanın zəngin dövlətçilik ənənələrinin qorunması və gələcək nəsillərə ötürülməsi tarixi mirasımıza sahib çıxmaqdan, onu yaşatmaqdan keçir. Bütövlükdə, dövlətçilik tariximizin mötəbər elmi mənbələrə söykənərək obyektiv, rasional baxış əsasında öyrənilməsi - tədqiq olunması tarixi şüurun formalaşması və milli özünüdərk baxımından strateji əhəmiyyətə malikdir. Çünki tarixi şüur milli şüurun ən əsas komponentlərindən biridir.

### Azərbaycanın dövlətçilik tarixinin xanlıqlar dövrünün başlıca səciyyəvi xüsusiyyətlərinə siyasi-analitik baxış

Azərbaycanın dövlətçilik tarixinin çox mühüm və həlledici mərhələlərindən birini xanlıqlar dövrü təşkil edir. Bu dövrün başlıca səciyyəvi xüsusiyyətlərinə tarixi faktların işığında nəzər saldıqda onun Azərbaycan dövlətçiliyində hansı yerə malik olduğu tam aydın görünür. Məlum olduğu kimi, XVIII əsrin 40-cı illərində Azərbaycan ərazisində müstəqil dövlətlər qismində xanlıqlar yaranmışdı. Şəki və Quba xanlıqları istisna olmaqla digər xanlıqlar əsasən Nadir şah Əfşarın 1747-ci ildə qətlindən sonra meydana gəlmişdilər, XIX əsrin 20-30-cu illərində isə mərhələli şəkildə Qacar İran dövlətinin və Rusiya imperiyasının nəzarəti altına keçmişdilər. Şəki, Bakı, Qarabağ, Gəncə, Şamaxı, Quba, Dərbənd, Lənkəran, Naxçıvan və İrəvan xanlıqları Şimali, Urmiya, Təbriz, Xoy, Qaradağ, Sərab, Marağa, Maku, Zəncan və Ərdəbil xanlıqları isə Cənubi Azərbaycanda meydana çıxmışdılar. Şimali Azərbaycan ərazisində xanlıqlarla yanaşı, öz ərazisinə və nüfuzuna görə daha kiçik feodal qurumları olan sultanlıqlar, məlikliklər mövcud idi. İlisu, Qəbələ, Ərəş, Qazax-Şəmşəddil sultanlıqları fəaliyyət göstərirdilər.

Xanlıqlar dövrünü tədqiq edən tarixçilərin bu dönəmə dair bir çox məsələlərlə yanaşı, xanlıqlarda idarəetmə formasını da araşdırma predmetinə çevirmələri mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, xanlıqlar dövründə mövcud idarəetmə formasının mahiyyətinə dair ümumiləşmiş qənaət ifadə etmək üçün dövlət idarəçiliyi və hakimiyyət strukturu məsələsinin elmi-nəzəri əsaslarına diqqət yetirmək məqsədəmüvafiqdir. Dövlət idarəçiliyi və onun əsaslarının öyrənilməsi sosial elmlərin mühüm tədqiqat obyekti qismində çıxış edir. Siyasi, iqtisadi, mədəni, hərbi, sosial və digər sahələrdə idarəetmə ilə bağlı konseptual xarakterli, mühüm elmi-nəzəri əhəmiyyətə malik olan tədqiqatlar mövcuddur. Bu məsələ kontekstində hakimiyyət strukturunun forması və xarakteristikası da tədqiqat obyektinə çevrilir. Başqa sözlə, siyasətşünaslıq elmində idarəetmənin əsasları kontekstində tədqiqat predmetinə çevrilən nəzəri-empirik məsələlərdən biri də hakimiyyət və onun funksionallığıdır. Siyasətşünaslıqda idarəetmə sistemində hakimiyyətin səlahiyyət və funksiyalarını yerinə yetirməsinin optimal və səmərəli forması məhz "hakimiyyət bölgüsü" prinsipi əsasında müəyyənləşə də, xanlıqlar dövrü tariximizdə bunu müşahidə etmək mümkün deyil. Məhz bu elmi-nəzəri və empirik əsasları rəhbər tutaraq xanlıqlar dövründə idarəetmə formasına nəzər saldıqda idarəetmədə praktiki olaraq təkhakimiyyətlilik prinsipinin hökm sürdüyünü aydın görmək olur. Bu, bizə xanlıqlar dövründə hakimiyyət strukturunun funksionallığı və səciyyəvi xüsusiyyətləri barədə dəqiq elmi-nəzəri qənaət əldə etməyə imkan verir. Məlum olduğu kimi, xanlıqlarda təkhakimiyyətlilik xanın qeyri-məhdud hakimiyyətə malik olmasında özünü göstərirdi. Eyni zamanda, hakimiyyətin digər qolu olan məhkəmə hakimiyyəti də məhz xanın əlində cəmləşmişdi, o, hətta ölüm hökmü vermək, yaxud bu cəza növünə məhkum olunmuş şəxsləri əfvetmə səlahiyyətinə malik idi. Xanın yanında məşvərət funksiyasına malik Divanın fəaliyyət göstərməsi isə, bir növ, qanunvericilik orqanının mövcudluğundan xəbər verirdi. Divanda, əsas etibarilə, sülh bağlamaq, müharibə elan etmək, vergilər qoymaq məsələləri müzakirə olunurdu. Belə şuralar Şəki, Şamaxı, Quba və Qarabağ xanlıqlarında mühüm institusional mexanizm kimi kifayət qədər nüfuza malik idi. Xanın qəbul etdiyi qərarlarda bir sıra hallarda Divanın və ya Məşvərət şurasının mövqeyinin həlledici rola malik olması isə müəyyən mənada qanunverici orqanın icra hakimiyyəti üzərində təsirini göstərən faktlardan idi.

### Xanlıqlar dövründə separatizm və mərkəzdənqaçma meyilləri: mərkəzləşmə prinsipindən uzaqlaşma milli dövlətçiliyin əsaslarının zəifləməsinə xidmət edən amil kimi

Xanlıqlar dövrünü tədqiq edən tarixçi-alimlərin diqqət yetirməsi zəruri olan məsələlərdən biri bu dönəmdə mərkəzdənqaçma meyillərinin sürətlənməsi, separatizmə rəvac verən qərarların qəbul olunması, addımların atılması idi ki, bu, son nəticədə Azərbaycan dövlətçiliyinin bəhs olunan tarixi mərhələdə mərkəzləşmə prinsipindən uzaqlaşmasını göstərirdi. Məlumdur ki, beşminillik tarixə malik olan Azərbaycan dövlətçiliyinin Səfəvilər dövründə növbəti mərkəzləşmə prosesinin əsası qoyulmuş, Nadir şah Əfşarın hakimiyyəti illərində isə bu, bir qədər də möhkəmləndirilmişdi. Bu, dövlətçilik ənənələrinin qorunması, mərkəzdənqaçma meyillərinin, siyasi deviasiya hallarının neytrallaşdırılması baxımından çox mühüm əhəmiyyətə malik idi. Sabitlik və tərəqqini təmin edən siyasi formula olan mərkəzləşdirmə prosesinin aradan qaldırılması isə dövlətçiliyin əsaslarının zəifləndirilməsi, suverenliyin məhdudlaşdırılması, hətta sıradan çıxmasına xidmət edəcəkdi. Bu, məhz xanlıqlar dövründə baş verdi. Bundan başqa, xanlıqlar arasında nüfuz və yeni ərazilər uğrunda mübarizənin şiddətli, kəskin xarakter daşıması həmin dövrdə Azərbaycan dövlətçiliyinin əsaslarının zəifləməsini şərtləndirən mənfi amil qismində çıxış edirdi. Həmin dönəmin Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi, ideoloji və mədəni tənəzzül dövrü kimi xarakterizə edilməsi heç də təsadüfi xarakter daşımır.

### Tarixşünaslığımıza dəyərli töhfə: xanlıqlar dövrünə yeni elmi-fəlsəfi və rasional baxış

Bütövlükdə, Azərbaycanın siyasi tarixinin xanlıqlar dövrü bir sıra xarakterik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Bu zamana qədər sözügedən məsələ ilə bağlı müxtəlif elmi-tədqiqat işləri, araşdırma nümunələri ortaya qoyulsa da, bu tarixi mərhələ indiyə qədər yetərincə tədqiq olunmamışdı, mövcud faktlar və reallıqlar sənədlərə əsaslanaraq dolğun surətdə elm ictimaiyyətinin diqqətinə təqdim edilməmişdi. Lakin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı tarixi faktlara, elmi əsaslara söykənməklə yanaşı, zəngin fikir və mülahizələrlə xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhlərin aradan qaldırılması baxımından böyük əhəmiyyətə malikdir. Müəllif ilk dəfə olaraq həmin dövrü siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə təhlil edib. Akademik Ramiz Mehdiyev həmin dövrün tarixi-siyasi xarakteristikasına nəzər yetirərək yazır: "Azərbaycanda mərkəzləşdirilmiş idarəçilik sisteminin əsaslarının məhv edilməsi, həmçinin milli mədəniyyətimizin, təsərrüfat həyatının tənəzzülünə səbəb olmuş feodal hərc-mərcliyi və bitib-tükənməyən ara müharibələri ilə müşayiət edilən, ən nəhayət, tarixi torpaqlarımızın ikiyə bölünməsinə gətirib çıxaran bu keşməkeşli dövr tarixşünaslığımızda hələ də öz layiqli siyasi qiymətini almamışdır".

Şübhəsiz ki, haqqında bəhs olunan kitabın Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində yazılması atılmış çox mühüm elmi addımdır. Çünki tarixin düzgün dəyərləndirilməsi, ona rasional və obyektiv baxışın formalaşdırılması, müxtəlif dövrləri əhatə edən tarixi faktlar və reallıqların gələcək nəsillərə düzgün çatdırılması hər bir xalq üçün strateji əhəmiyyətə malikdir. Akademik Ramiz Mehdiyev yeni kitabında haqlı olaraq qeyd edir ki, tarix keçmişi, bu günü və sabahı bir-birinə möhkəm tellərlə bağlayan bir ke-

çid, körpüdür: "Keçmişi bilmədən bu günə və gələcəyə keçmək qeyri-mümkündür. Keçmişimizi öyrənmək üçün ilk addım kimi tarixə, onun fəlsəfəsinə və təyinatına olan münasibətimizi dəyişməli, anlayışların zahirindən daha çox, onların daxilini görməyə, anlamağa vərdiş etməliyik".

## Tariximizin xanlıqlar dövrünün siyasi irsinin 22 orijinal sənəd əsasında tədqiq edilməsi mühüm elmi-nəzəri, konseptual və tarixi-siyasi əhəmiyyətə malikdir

Akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının elm ictimaiyyətinin böyük marağına səbəb olması təsadüfi xarakter daşımır. Əsər bir çox məziyyətləri ilə diqqəti cəlb edir. Əvvəla qeyd edək ki, kitab mütəlif arxiv materialları, mühüm tarixi qaynaqlar ilə zəngindir. Əsərə 22 orijinal sənəd daxil edilib və bu sənədlərin hər biri müqayisəli təhlil metodu əsasında tarixi faktlar üzrə və siyasi-analitik yanaşma kontekstində dərin təhlil edilib. Tarixşünaslığımıza dəyərli töhfə olan bu kitabda müəllif xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisələrin predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar, mötəbər elmi mənbələr əsasında obyektiv qiymət verib, sözügedən istiqamətlərə dair arxiv sənədlərində əks olunan məqamlar dolğun surətdə diqqətə çatdırılıb. Şübhəsiz ki, nəşrdə təqdim edilən, müvafiq interpretasiyalarla müşayiət olunan sənədlər həm xanlıqlar dövrünün, həm də müxtəlif tarixi dönəmlərin real mənzərəsinə aydınlıq gətirmək üçün böyük elmi əhəmiyyətə malikdir.

Akademik Ramiz Mehdiyevin qələmə aldığı əsərin daha bir məziyyəti odur ki, kitabda tanınmış alimlərin xanlıqlar dövrünün hadisələri ilə bağlı maraqlı fikirlərinə istinad edilib, həmin dövrün mühüm şəxsiyyətləri barədə məlumatlar əks olunub. Daha dəqiq desək, Ağa Məhəmməd şah Qacar, Abbas Mirzə Qacar, Fətəli şah Qacar, Qarabağ xanı İbrahimxəlil xan, Gəncə xanı Cavad xan, Şəki xanı Səlim xan, general Pavel Sisianov haqqında məlumatlar həm mötəbər mənbələr, həm də müəllifin elmi-analitik qənaətləri əsasında diqqətə çatdırılıb. Bundan başqa, kitabda birinci və ikinci Rusiya-İran müharibələri, həmçinin Kürəkçay müqaviləsi barədə də zəngin faktlara söykənən elmi mülahizələr öz əksini tapıb. Əsərdə türkiyəli tarixçi F.Sümərin, iranşünas və şərqşünas alimlər M.İvanovun, K.Bosvortun, Y.Krımskinin və başqalarının xanlıqlar dövrünün hadisələri ilə bağlı maraqlı fikirlərinə istinad edilməsi də mühüm yeniliklərdən biridir.

"Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabında əks olunan çox mühüm məqamlardan biri həmin mərhələdə mərkəzləşdirilmiş idarəçilik sisteminin əsaslarının tamamilə sıradan çıxarılmasının, mərkəzdənqaçma meyillərinin artmasının Azərbaycanın dövlətçilik ənənələrinin möhkəmlənməsinə mənfi təsirinin tarixi-siyasi və elmi-fəlsəfi kontekstdə təhlil edilməsidir. Müəllif belə bir analitik qənaət ifadə edir ki, xanlıqlar dövrü Azərbaycan dövlətçiliyinin və xalqının taleyində oynadığı rol baxımından tariximizin ən mühüm mərhələlərindən birini təşkil edir. Qeyd olunur ki, məhz bu dövrdə Azərbaycan dövlətçiliyi mərkəzləşmə prinsipindən məhrum olur. Vaxtilə Səfəvi şahlarının, xüsusən Şah İsmayıl Xətainin və Nadir şahın hərbi dühası və siyasi məharəti hesabına yaradılan, Azərbaycan türklərinin titul xalq statusunda idarə etdikləri böyük bir coğrafiyada irili-xırdalı onlarca feodal dövlətin meydana gəlməsi siyasi böhranla yanaşı, böyük iqtisadi və mədəni tənəzzülə aparıb çıxarır. Akademik Ramiz Mehdiyev haqlı olaraq xanlıqlar dövrünün tarixi şüurumuzda feodal hərc-mərcliyinin sinoniminə çevrildiyini vurğulayır.

## Tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur

Əsərin mühüm məziyyətlərindən biri də komparativ təhlil metodu əsasında xanlıqlar dövrünün siyasi hadisələrinin müasir dövrdəki analoji proseslərlə müqayisə edilməsidir. Sirr deyil ki, dövlətçilik tariximizin xanlıqlar mərhələsi və müasir dövrdə Azərbaycan xalqının üzləşdiyi ən ağır problem torpaqlarımızın itirilməsidir. Akademik Ramiz Mehdiyev yazır ki, Azərbaycan xanları vaxtilə birləşib ümumi düşmənə qarşı vahid cəbhədən çıxış edə bilsəydilər, böyük ehtimalla torpaqlarımızın bu qədər asanlıqla və qısa zamanda işğalı da mümkün olmayacaqdı. Müvafiq olaraq ermənilərin Vətənimizə kütləvi şəkildə köçürülməsi və gələcəkdə Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması perspektivi də sual altına düşəcəkdi. Müəllif bütövlükdə bəhs olunan kitabda bu məsələyə xüsusi diqqət yetirib, səbəblər və nəticələrə elmi yanaşma əsasında nəzər salıb. Akademik Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki, tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur. Əsərdə vurğulanır ki, xanlıqlar dövrü ilə müstəqilliyimizin ilk illəri arasında mövcud olan kədərli oxşarlıqlardan daha biri isə torpaqlarımızın itirilməsi ilə bağlıdır: "Əgər xanların özbaşınalığı və separatçı davranışları Şimali Azərbaycanın çarizm tərəfindən işğalı və 1828-ci il Türkmənçay sazişinin müddəalarına əsasən İran ermənilərinin Qarabağa, Naxçıvana və İrəvana köçürülməsi ilə yekunlaşmışdısa, ötən əsrin 90-cı illərinin əvvəlində üzləşdiyimiz vəziyyət Ermənistanın öz havadarlarının birbaşa dəstəyi sayəsində Dağlıq Qarabağı, həmçinin onun ətrafındakı 7 rayonu qəsb etməsi ilə nəticələndi".

Akademik Ramiz Mehdiyev hər iki dövrə nəzər salaraq mərkəzdənqaçma və separatizm meyillərinin Azərbaycan dövlətçiliyinə qarşı yaratdığı təhdidlərin mümkün nəticələrini diqqətə çatdırır. Müəllif Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi rolundan və misilsiz xidmətlərindən bəhs edir. Həqiqətən də, Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, ölkəmizdə milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi ulu öndər Heydər Əliyevin xalqımızın qarşısında tarixi xidmətləri misilsizdir. Bunlardan biri də, heç şübhəsiz, Azərbaycanda vətəndaş müharibəsinin qarşısının alınması, milli həmrəyliyin təmin olunması və ölkəmizin gerçək müstəqilliyinin əldə edilməsidir. Həmin dövrə nəzər salsaq, görərik ki, ümummilli lider Heydər Əliyev böyük dövlət xadimi kimi Azərbaycan dövlətinin və dövlətçiliyinin mənzərəsini çox aydın şəkildə görür və onun struktur formulasını müəyyənləşdirərək nəyin necə olmasını dəqiq cizgilərlə qura bilirdi. Məhz bunun nəticəsi idi ki, müstəqil Azərbaycan dövləti quruldu. Məhz Ulu Öndərin həmin dövrdə həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan müstəqil dövlət - formal yox, həqiqi müstəqil dövlət kimi tanındı. Bəlli olduğu kimi, 1991-1993-cü illər ərzində xarici kəşfiyyat orqanlarının siyasi-ideoloji qarşıdurma poliqonuna çevrilən Azərbaycanın ciddi xaos və kataklizmlərlə qarşı-qarşıya qalması ölkəmizin müstəqilliyini itirmək təhlükəsini meydana çıxarmışdı. Əslində, bu dövrdə ölkəmizin nisbi müstəqilliyindən belə danışmaq olmazdı, çünki hakimiyyətdə olan qüvvələrin öz funksiyalarını yerinə yetirə bilməmələri hakimiyyət böhranı və anarxiyanın meydana çıxmasına səbəb olmuşdu. Ümummilli lider Heydər Əliyevin real ictimai-siyasi tələblərin zərurəti kontekstində ikinci dəfə siyasi hakimiyyətə qayıtması isə xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Bundan sonra ölkədə siyasi sabitlik təmin edildi, xaos və kataklizmlərin qarşısı məharətlə alındı. Ulu öndər Heydər Əliyevin zamanında atdığı praqmatik addımlar bir əsrdə ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycanın öz mövcudluğunu qoruyub saxlamasını təmin etdi. İctimai-siyasi sabitliyin təmin edilməsi və sistemli, kompleks tədbirlərin görülməsi nəticə etibarilə yeni cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu prosesinin başlanmasını mümkün edən strateji amil oldu. Ümummilli Lider tarix baxımından çox qısa bir müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail oldu. Beləliklə, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan tarixində ən yeni eranın əsasını qoyan, dövlətçiliyi bərpa edən, onun ideoloji, iqtisadi və siyasi əsaslarını formalaşdıran böyük dövlət xadimidir. Digər tərəfdən, Ulu Öndər özünü dövlətlə identifikasiya edəcək fərdlərin şüurunda inqilab yaratdı. Məlumdur ki, XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə etnik, regional, sosial-ideoloji zəmində separatçılığa söykənən tendensiya hökm sürürdü. Azərbaycan cəmiyyətinin daxili və mürəkkəb mikrostrukturunun təbəqələri heç də müstəqil dövləti milli sərvət kimi qəbul etmirdilər, ona görə də bu düşüncəni dəyişmək lazım idi. Böyük dövlət xadimi, dahi siyasətçi Heydər Əliyev buna nail olmağı bacardı. Akademik Ramiz Mehdiyev bu məqamlara toxunaraq yazır: "Tam əminliklə bildirirəm ki, əgər o dövrdə tarix səhnəsində Azərbaycan xalqının Ümummilli Lideri, zəngin idarəçilik təcrübəsinə malik, böyük siyasi iradə və səriştə sahibi Heydər Əliyev olmasa idi, bəzən ayrı-ayrı şəxslərin hakimiyyət hərisliyi ucbatından, bəzən isə xarici qüvvələrin əmri ilə alovlanan separatçılıq atəşində gənc dövlətçiliyimiz yanıb külə dönəcəkdi".

## "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı tarixçi-alimlər üçün "yol xəritəsi" olmaqla yanaşı, yeni elmi-tədqiqat əsərlərinin yaradılması üçün mötəbər elmi mənbə səciyyəsi daşıyır

Nəticə etibarilə, "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı da akademik Ramiz Mehdiyevin bundan önceki fundamental tədqiqatları kimi böyük elmi-nəzəri və konseptual əhəmiyyətə malikdir. Kitabda müqayisəli və hərtərəfli elmi təhlil metodu əsasında tarixşünaslığımızda ilk dəfə olaraq xanlıqlar dövrünün siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni konseptual dəyərləndirilməsi aparılıb. Əsər, həmçinin bu istiqamətdə yeni tədqiqatlar üçün geniş imkanlar yaradır. Başqa sözlə, bu kitabı tarixçi-alimlər üçün "yol xəritəsi" kimi də xarakterizə etmək olar. Akademik Ramiz Mehdiyev yazır: "Tarixçilərimiz, filosoflarımız, ədəbiyyatşünaslarımız, mədəniyyətşünaslarımız onu da unutmamalıdırlar ki, keçmişin irsindən qorxmağa, yaxud ehtiyatlanmağa lüzum yoxdur. Onu olduğu kimi qəbul edib öyrənmək, müsbət tərəflərini və qüsurlarını obyektiv şəkildə göstərmək və ədalətli qiymətləndirmə əsasında ictimaiyyətə ötürmək lazımdır. Tarixi mirasla işləyərkən, əslində, tamam başqa bir məsələdən - hansısa siyasi-ideoloji səbəblərdən, yaxud təəssübkeşlik ucbatından ört-basdır etməyə çalışdığımız və ya mahiyyətini təhrif edərək çatdırdığımız faktların sonradan aşkara çıxarıldığı zaman xalqda, cəmiyyətdə yaradacağı məyusluqdan, ruh düşkünlüyündən və psixoloji sarsıntıdan ehtiyatlanmaq lazımdır".

Bütövlükdə, peşəkar tarixçilər və mənbəşünaslar, həmçinin Azərbaycan tarixi ilə dərindən maraqlanan oxucular üçün nəzərdə tutulan nəşr Azərbaycan tarixşünaslığında, tarixi-fəlsəfi və ictimai-siyasi fikrində sözügedən məsələyə daha sistemli, obyektiv və rasional baxışın formalaşmasına imkan yaradan dəyərli, mötəbər elmi-konseptual mənbədir.

## "Dövlətin qayğısı teatrların hərtərəfli inkişafına yol açacaq"



"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu gün Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında Sərəncamı olduqca təqdirəlayiqdir. Sərəncama əsasən Azərbaycan teatr ənənələrinin qorunub saxlanılması və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi üçün daha yaxşı şərait yaradılacaq". Bu sözləri SİA-ya açıqlamasında Teatr Xadimləri İttifaqının sədri, Xalq Artisti Azərpaşa Nemətov bildirib.O, əlavə edib ki, bölgələrdə teatrların inkişafı mədəniyyətimizə olan diqqətin daha bir nümunəsidir: "Tearta olan marağın daha da artması üçün bölgələrdəki dinamika artmalıdır. Bu maraq inanıram ki, bundan sonra daha da çoxalacaq. Bildiyiniz kimi, ölkə Prezidentinin Sərəncamına əsasən, Mədəniyyət Nazirliyinə 1,2 milyon (bir milyon iki yüz min) manat ayrılıb. "Yuğ", Pantomima teatrlarına, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına, Şəki, Ağdam, Füzuli, Qazax Dövlət Dram teatrlarına, Qusar Dövlət Ləzgi Dram Teatrına, Qax rayonu Gürcü Dövlət Dram Teatrına lazımı diqqət göstəriləcək. Dövlətin qayğısı teatrların hərtərəfli inkişafına yol açacaq".

## TANAP-la Avropaya təbii qaz nəqlində son mərhələyə başlanılıb

Azərbaycanın "Şahdəniz-2" yatağından çıxarılan təbii qazın Avropaya ötürülməsinə və bölgənin təbii qaz təchizatına töhfə verəcək TANAP-ın Əskişəhərdən Ədirnə-İpsalaya qədər uzanan 2-ci fazasında son mərhələyə başlanılıb.

SOCAR-dan AZƏRTAC-a bildirilib ki, Avropaya qaz nəqli üçün nəzərdə tutulan 2-ci fazanın istismara verilməsi çərçivəsində bu il aprelin 15-dən etibarən sistemə qaz verilməyə başlanıb. Cari ilin iyununda sistemin istismara hazırlıq işlərinin tamamlanması və Avropaya sınaq məqsədilə qazın nəqli üçün hazır vəziyyətə gətirilməsi planlaşdırılır. Ötən ilin iyununda keçirilən beynəlxalq açılış mərasimindən sonra işə salınan və birinci fazası çərçivəsində Türkiyəyə qaz nəqlinə başlanan TANAP layihəsinin 2-ci fazası da son mərhələyə daxil olub. Bu faza Avropaya qaz nəqli məqsədilə kəmərin Əskişəhərin Seyitgazi bölgəsindən başlayaraq Ədirnənin İpsala bölgəsinə qədər uzanan və Türkiyə-Yunanıstan sərhəddində bitən hissəsinin inşasını əhatə edir.

# YAP Masallı rayon təşkilatı aparatında fəal gənclərlə görüş keçirilib



Dünən YAP Masallı rayon təşkilatı aparatında fəal gənclərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq, bildirmişdir ki, Azərbaycan gəncliyi ölkənin daxili ictimai-siyasi, həmçinin, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və kreativliyi ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir: "Azərbaycan gəncliyi ölkəmizi beynəlxalq aləmdə də layiqincə təmsil edir, dövlətimiz haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında, mədəni-mənəvi irsimizin təbliğ olunmasında fəallıq nümayiş etdirir. Məhz bütün bunlar, gəncliyimiz üçün dövlətimiz tərəfindən yaradılmış əlverişli imkanlar, verilmiş mükəmməl təhsil və özünü təsdiqləmək üçün ideal məkan əsasında ərsəyə gəlib. Müasir Azərbaycan gəncliyi unutmur ki, onlar müstəqil dövlətin azad gəncləri olaraq, bugünkü uğurlara, məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs nəticəsində nail olublar".

Seyfəddin Əliyevin sözlərinə görə, partiyamızın gəncləri özlərini cəmiyyətimizin fəal təbəqəsi kimi təsdiqləyiblər: "Gənclərimiz yüksək vətəndaş mövqeyi, ictimai-siyasi proseslərdə fəallıq və yüksək vətənpərvərlik nümayiş etdirirlər. Eyni zamanda, Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqət, dövlətə və dövlətçiliyə bağlılıq, Prezident İlham Əliyevin siyasətini, birmənalı şəkildə dəstəkləmək gənclərimizin əsas xarakterik keyfiyyətləri sırasındadır.

Tədbirdə iştirak edən gənc YAP üzvlərindən Nemət Abdullayev, Ülvi Rufullayev, Rövşən Muxtarov və başqaları çıxış edərək, qeyd etmişlər ki, bu gün Azərbaycan gəncliyinin önündə böyük qapılar və yollar açılıb. Gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir və bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir.

**RƏFİQƏ**

# DSX: İrandan Azərbaycana qaçaqmalçılıq yolu ilə 16 kiloqrama yaxın narkotik vasitənin keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları narkotik vasitələrin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə keçirilməsinin qarşısını alıblar.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Sım kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycana doğru hərəkət edən 2 nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib. Sərhəd naryadının "dayan" əmrinə tabe olmayan sərhəd pozucularına qarşı silahdan havaya xəbərdarlıq məqsədilə atəş açılıb, lakin sərhəd pozucuları əllərindəki əşyaları əraziyə ataraq geriyə qaçıblar. Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib, 1 ədəd bel çantası və 1 ədəd torbada ümumi çəkisi 15 kiloqram 815 qram olan narkotik vasitə və 1 ədəd Kanada istehsalı



olan gecəgörmə cihazı aşkarlanaraq götürülüb. Qeyd olunan fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.



# Bu ilin ilk rübündə muxtar respublikada 1000 uşaq dünyaya gəlib

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların səmərəliliyi, əhalinin yaşayış standartlarının davamlı yüksəlişi, güzəranının daha da yaxşılaşması, müalicə-profilaktika işinin təşkili sahəsində görülən tədbirlər demoqrafik vəziyyətə də öz təsirini göstərib. Belə ki, 2019-cu ilin ilk rübündə muxtar respublikada 1000 uşaq doğulub.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, nazirlik əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini cari ilin birinci rübündə də davam etdirib. Dövlət proqramlarının icrası, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması işləri diqqətdə saxlanılıb.

Bu ilin ilk rübündə səhiyyə müəssisələrində xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin aktiv müalicəyə cəlb edilməsi, eləcə də xəstələrin dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təminatı nəzarətdə saxlanılıb, həyata keçirilən tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təminatı yaxşılaşıb.

Ötən dövrdə müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunub və Naxçıvan həkimləri ilə birgə cərrahi əməliyyatlar aparılıb. Həmçinin Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Babək Rayon Mərkəzi Xəstəxanasında, Diaqnostika-Müalicə Mərkəzinin həkim briqadası Sədərək Rayon Mərkəzi Xəstəxanasında əməliyyatlar aparıb. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Naxçıvan şəhərinin təhsil müəssisələri işçilərində süd vəzinin profilaktik müayinəsi icra edilib.

Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə dezinfeksiya və dezinseksiya tədbirləri də diqqətdə saxlanılıb, hepatit B və C virus infeksiyalarının qarşısının alınması tədbirləri davam etdirilib, 148 tibb bacısı vaksinasiya olunmaq üçün hepatit B infeksiyasına qarşı müayinə olunub. Həkim və orta tibb işçiləri Bakı şəhəri və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşdirmə kurslarına göndərilib, Naxçıvan Tibb Kollecində və səhiyyə müəssisələrində nəzəri və təcrübi biliklərə yiyələniblər.

Rüb ərzində "Tibb işçilərinin masaüstü kitabı", "Sağlam uşaqlarla sağlam gələcəyə" kitablarının təqdimatı olub. Əlillərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına və müxtəlif xəstəxanalara müalicəyə göndərişlər davam etdirilib. Cari ilin ilk üç ayında 228 min 130 nəfər tibbi müayinə olunub.



**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

## *Ronaldo necə AXCP-nin "üzvünə" çevrildi?*

***Yalançı, böhtançı, şərbaz gördük, amma AXCP sədri Əli Kərimli kimi hapagopa basaraq, ətrafındakı kütləni barmağına, daha nə bilim, harasına sarıyan qədərini görmədik. Belə getsə, heç görməyəcəyik də... Bu günlərdə diqqətimi Ə.Kərimlinin nəzarətində olan FB səhifələrində guya hansısa məmur balasının xarici ölkələrin birində bahalı avtomobillə qəza törətməsini əks etdirən video çəkdi. "Azərbaycanlı məmurun oğlu Londonda "Lamborcini" ilə belə qəza törədib" şərhi ilə ictimailəşdirilən videoda, hətta "istinad" da olub. Yazılıb ki, "Videonu jurnalist Cavanşir Həsənli paylaşıb". Çox pakizə, hətta aliyül-əla!***

Bilirik ki, Ə.Kərimli, onsuz da pişik asqırarkən, it öskürərkən, öküz böyürərkən, xoruz banlayarkən və s. bütün bunların günahını atır hakimiyyətin üzərinə. Pişik asqırırsa, deməli ki, onun qrip olmasına səbəb "iqtidarıymış", it öskürərkən, itin anginna xəstəliyinə tutulmasına səbəb yenə də "hakimiyyətiymiş", öküz böyürürsə, xoruz banlayırsa, bu dəfə də "günahın" kimdə olduğu bəlliymiş...

Beləliklə, sözügedən məsələ sosial şəbəkədə ictimailəşdiriləndən sonra, Kərimlinin trol yığnağı başladı, nə başladı - balta atan kim, bıçaq tullayan kim, ağzını böyük diametr boyunca açıb, köpük fışqırdan kim... Əli də oturub kənardan hakimiyyəti söydürdüyü trollarına baxıb həzz alır, kef edir. Deyir ki: "Belə axmaqları idarə etməyə nə var ki! İstədiyim zaman ambisiyalarıma görə eşşək kimi işlədirəm".

Əslində, axecepeçilərin sədrindən ayrı nə gözləməyə dəyərdi ki? Amma..!

Amma sonradan bəlli oldu ki, sözügedən "Lombarcini" heç də məmur-filan balasına məxsus deyilmiş, bu bahalı maşının sahibi dünyaca məşhur futbolçu Kriştiano Ronaldonuymuş. London traktirlərində, bar və restoranlarında, kazinolarında ayağı ilə qazandığı yüz minlərlə avronu havaya səpərək, sərxoş halda avtomobilini idarə edib və qəza törədib, vəssəlam-şüttəmam!

Amma demə, Ronaldo heç özünün də xəbəri olmadan, Ə.Kərimlinin partiyasına - AXCP-yə üzv olub, üstəlik, "Milli Şura"ya da "zayavka" verib. Cəmil Həsənli isə yığacaq "koordinasiya şurasını" və Ronaldonun bu quruma üzv olması ilə bağlı səsvermə keçirəcək...

Təbii ki, bu cür düşük siyasi oyunbazlıqlar vasitəsi ilə özünü biabır edən Ə.Kərimlidən hər hansı ağıllı addımı gözləməyə dəyməzdi. Bilən bilir ki, bu məxluq düşük və həyasızın biri kimi, sabah-birigün Roma Papasının da AXCP-"Milli Şura"ya dəstək verdiyini iddia edər. Ancaq məsələnin məğzi heç bunda da deyil, məğz budur ki, görün kimlər "biz hakimiyyətə gələcəyik" iddiası ilə, artıq 30 ilə yaxındır ki, xalqın, millətin zəhləsini aparır, üstəlik, yuxarıda qeyd edilən sarsaq iddialarla. Ona görə də, bu Əlinin ətrafı günü-gündən seyrəlir, tükənir və yox olur. Qalanlar varsa, onların da Kərimlidən, bir qram da olsa, heç bir fərqləri-filanları yoxdur. Elə beləlri oralarda var-gəl etsələr yaxşıdır, sağlam cəmiyyətə daxil olub, çirkinliklərini, yoluxucu xəstəliklərini bulaşdırmamaları üçün.

***P.S.*** *Deyirəm, nə olardı, Ronaldo gözünə döndüyüm, onun başına gələn qəza hadisəsindən öz ambisiyalarına görə sui-istifadə edən Ə.Kərimlini verərdi məhkəməyə ki, bəs a gəda, bu, nə məsələdir? Bir də ki, görəsən, Kriştiano özünün də xəbəri olmadan AXCP-yə üzv yazdırıldığını, "Milli Şura"ya isə adından "zayavka" verildiyini öyrənərsə, nə olar? Məncə, heç nə olmaz, sadəcə, o Kərimlini futbol topu kimi çiliyib, qapıda dayanan Cəmil Həsənliyə ayaqları arasından qəşşşəng bir fırlatma qol vurar...*

***Bəşər mədəniyyətinin ayrılmaz parçası olan Azərbaycan xalqının mədəni irsi çoxəsrlik tarixi keçmişimizdən yadigardır və bu tarix və mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edir. Məqbərələr, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr və s. tarixi keçmişimizin maddi yadigarları zamanın sərt sınaqlarına sinə gərərək, bu günümüzə gəlib çatmışlar. Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Gələrsən-Görərsən kimi qalalarımız, Möminə xatın, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Şəki Xan Sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndir. Belə abidələrə sahib olan Azərbaycanda da 18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd olunur. Bu əlamətdar gün 1983-cü ildə UNESCO-nun yanında Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının Beynəlxalq Assambleyası tərəfindən təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.***



# 18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür

### AZIX VƏ TAĞLAR MAĞARALARI DÜNYANIN ƏN QƏDİM İNSAN YAŞAYAN MƏSKƏNLƏRİDİR

Bu gün biz Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününü qeyd etsək də, təəssüflər olsun ki, ölkəmizin ərazisinin 20 faizini təcavüz yolu ilə işğal etmiş Ermənistan hərbi birləşmələri milli-mədəniyyət abidələrimizi qəddarcasına uçurub dağıdıb. Hərbi təcavüz nəticəsində, ilk insan məskənlərindən olan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hazırda hərbi məqsədlərlə istifadə edilərək, qəsdən məhv edilir. Halbuki işğal altında olan Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi-mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan Muzeyində “Avropanın ilk sakinləri” adlı sərgidə nümayiş etdirilib.

Xocalı, Ağdam, Ağdərə, Füzuli və Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan və Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz isə sıradan çıxarılır. İşğal zonalarında maddi mədəniyyət yadigarlarımızın dağıdılması prosesi indi də davam edir. İşğalçılar genişmiqyaslı, qeyri-peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar. İşğal olunmuş ərazilərdə Ermənistan silahlı qüvvələri 1,421 mədəniyyət evini, 15 şəhər və 503 kənd mədəniyyət evi və klubunu, 8 rayon, 32 şəhər, 10 uşaq və 683 kənd kitabxanasını, 6 mədəniyyət və istirahət parkını, 47 uşaq musiqi məktəbini, 3 teatr, 3 qalereya, 464 tarixi abidəni, təqribən 40 min tarixi əl işi və 4,6 mln. kitabı məhv edib və dağıdıblar. Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması “Silahlı münaqişə baş verdikdə, mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyasına, “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyasına, “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

### ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞAL EDİLMƏSİ İLƏ ÖLKƏMİZİN TARİXİ VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNƏ DƏYƏN ZƏRƏR 177 MİLYARD DOLLAR TƏŞKİL EDİR

Ermənistanın təcavüzü nəticəsində, Azərbaycanın məruz qaldığı itki və tələfatların hesablanması üzrə işçi qrupun qənaətinə əsasən, Dağlıq Qarabağ regionunun və ətraf 7 rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə ölkəmizin tarixi və mədəniyyət abidələrinə dəyən zərər 177 milyard dollar təşkil edir. Əhalinin mülkiyyətinə isə 55,4 milyard dollar məbləğində zərər vurulub. Qeyd edilib ki, Azərbaycanın yerüstü və yeraltı təbii sərvətlərinin ermənilər tərəfindən talan edilərək məhv edilməsi nəticəsində, dəymiş birbaşa və dolayı zərərin 190 milyard dollardan artıq olacağı şübhə doğurmur. Hərbi təcavüz nəticəsində, işğal olunmuş ərazilərdə ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hazırda hərbi məqsədlərlə istifadə edilərək, qəsdən dağıdılır.

Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər qiymətli materiallar vardır. Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənələrini, onun mədəni kökünü özündə ehtiva edir. Erməni qəsbkarlarının işğalı altında olan ərazilərimizdəki abidələrin saxtalaşdırılması istiqamətində aparılan işlər Ermənistanın özünü təsdiqləmək, tarixini və mədəniyyətini yaratmaq siyasətinə xidmət edir.

### AZƏRBAYCANDA OLAN 28 TARİXİ QORUQDAN 14-Ü TARİXİ-MƏDƏNİYYƏT QORUĞU, 8-İ TARİXİ-MEMARLIQ, 2-Sİ TARİXİ-BƏDİİ QORUQDUR

Dövlət tərəfindən, bütün sahələrə olduğu kimi, xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə, qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara diqqət və qayğı artıb. Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, Bakı şəhərində “Şirvanşahlar Saray Kompleksi”, “Məhəmməd” məscidi, “Kiçik Karvansaray”, “Bazar Meydanı”, “Məktəb-məscid”, Şəki rayonunda “Şəki Xan Sarayı”, qala divarları, “Kiş” Alban məbədi, “Aşağı Karvansaray”, “Şəkixanovların Evi”, Quba rayonunun Xınalıq kəndində “Əbu-Müslüm” və “Xıdır Nəbi” məscidləri, Şərur rayonunda “Qudi-Xatun” türbələri, Babək rayonunda “Əshab-ül-Kəhf” Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi Məqbərəsi, Hacıqabul rayonunda “Pir Hüseyn” Xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb. Görülən işlər tarixin daş yaddaşı olan abidələrin nəsillərdən-nəsillərə ötürülməsində əhəmiyyətlidir. “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə dövlət başçısının Sərəncamı bu sahədə həyata keçirilən tədbirlərin davamı oldu. Dövlət Proqramına əsasən, milli-mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq, daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, tarix və daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilib.

Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-si tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq fəaliyyət göstərir. Qobustan Dövlət Tarix-Bədii Qoruğu, Nardaran Tarix-Mədəniyyət qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, “Çıraqqala” Tarixi-Memarlıq Qoruğu, “Şabran şəhəri” Tarixi Qoruğu, “Avey” Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur. Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Ziyarətçilərin qoruqları rahatlıqla ziyarət etmələri üçün müvafiq infrastrukturun yaradılmasından tutmuş, elmi-tədqiqatların aparılmasına qədər ən müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir.

### DÖVLƏT BAŞÇISININ FƏRMAN VƏ SƏRƏNCAMLARI İLƏ ÖLKƏ ƏRAZİSİNDƏ OLAN QORUQLARDA, TARİXİ ƏRAZİLƏRDƏ GENİŞMİQYASLI BƏRPA-KONSERVASİYA, ELMİ-TƏDQİQAT, YENİDƏNQURMA VƏ ABADLAŞDIRMA İŞLƏRİ APARILIR

Son illərdə Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə ölkə ərazində yerləşən bir çox abidələrin qorunması təmin edilib, əraziləri abadlaşdırılıb və yeni turizm marşrutları müəyyən olunub. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir. Görülən işlərin davamı olaraq, dövlət başçısı “Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğu, Şabran rayonunun ərazisində yerləşən, V-VI əsrlərə aid “Çıraqqala” abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işlərinin aparılması məqsədi ilə sərəncamlar imzalanmışdır.

Göründüyü kimi, ölkə ərazisində olan qoruqlarda, tarixi ərazilərdə dövlət tərəfindən genişmiqyaslı bərpa-konservasiya, elmi-tədqiqat, yenidənqurma - abadlaşdırma işləri aparılıb və bu iş bu gün də davam etdirilməkdədir. Əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə, qəza vəziyyətinə düşmüş tarixi- mədəniyyət abidələrinin əksəriyyətində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılır.

***Zümrüd BAYRAMOVA***

# XVI əsr görkəmli türk coğrafiyaçısının əsəri rus dilinə tərcümə olunub




XVI əsr görkəmli türk coğrafiyaçısı, dənizçi və admiral Piri Rəisin dünyaca məşhur “Kitabi-Bəhriyyə” (“Dənizçilik haqqında kitab”) əsəri rus dilində çapdan çıxıb. Əsəri qədim osmanlı dilindən rus dilinə Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı Tahirə Əliyeva tərcümə edib. Kitabın tərtibatı və “Ön söz” Tahirə Əliyevaya məxsusdur, elmi redaktoru filologiya üzrə elmlər doktoru, professor Paşa Kərimovdur. Əlyazmalar İnstitutundan AZƏRTAC-a bildiriblər ki, 1521-ci ildə yazılan “Kitabi-Bəhriyyə” Piri Rəisin dənizçilik fəaliyyəti dövründə gördüyü yerləri təsvir edən qeydlərdən ibarətdir. Həm də savadlı xəritəçi olan Piri Rəis gördüyü yerlərin xəritələrini tərtib edib.

Həmin xəritələr kitaba əlavə olunub. “Kitabi-Bəhriyyə”nin bir hissəsi nəzmlə yazılıb. 972 beytdən ibarət olan bu hissə 23 qismə bölünür. Burada dənizçilərə tövsiyələr, təbiət hadisələri, xəritələr, adalar, dənizlər, Atlantik okeanı, Amerikanın kəşfi və s. haqqında məlumatlar yer alır. Dəyərli məlumatların içində maraqlı bir fakt nəzərə çarpır: yeddi dənizin adını çəkən Piri Rəis sonuncu dənizi “Bəhri Külzüm” adlandırır. Heç bir okeana çıxışı olmayan bu dənizdən bəhs edən coğrafiyaçının Xəzər dənizini nəzərdə tutduğu ehtimal oluna bilər.

*Bu gün Ermənistan daxilində son vəziyyətin təhlili, istər ictimai-siyasi, istərsə də sosial-iqtisadi müstəvidə gərginliyin yenidən yüksələn xətt üzrə inkişaf etdiyini göstərir. Bunun səbəbi isə, Nikol Paşinyanın hakimiyyətə gəlməzdən əvvəl, verdiyi vədləri yerinə yetirə bilməməsidir. Bu isə, artıq erməni cəmiyyətində yeni narazılığa rəvac verir. Yaranmış vəziyyətdə Paşinyan etirazları səngitmək üçün sələflərinin taktikasından istifadəyə daha çox meyillənir. Söhbət cəbhədə gərginliyi artırmaqla, diqqəti daxili problemlərdən bu istiqamətə yönəltmək cəhdlərindən gedir.*

# Paşinyan populist bəyanatlar girdabında...

## Və yaxud uçuruma gedən yol





Son dövrlərdə düşmənin atəşkəsi daha intensiv şəkildə pozması, müxtəlif təxribatlara cəhd etməsi, əsasən də, mülki əhalini hədəfə alması qeyd edilənlərin nəticəsi sayılır. Yeri gəlmişkən, qeyd edək ki, artıq bununla bağlı müdafiə naziri, general-polkovnik Zakir Həsənov konkret tapşırıqlar da verib. Bütün bunlar, o deməkdir ki, düşmənin istənilən təxribatı ona daha baha başa gələcək. Özü də yaranmış vəziyyətdə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

### Azərbaycan Prezidentinin növbəti sərt xəbərdarlığı

Təəssüf doğuran odur ki, sosial problemlərin məngənəsində boğulan Ermənistanda etiraz aksiyaları səngimək bilmədiyi halda, hələ də Nikol Paşinyan bu sahədə, bir addım belə irəli gedə bilmir. "Küçə demokratı" nə yalan vədlərə son qoyur, nə də populist çıxışlara. Nəticədə, düşmən təxribatı erməni ordusunda itkilərin sayını sürətlə artırır. Prezident İlham Əliyev çıxışlarında erməni tərəfinə dəfələrlə sərt xəbərdarlıqlar da edir. O, açıq şəkildə diqqətə çatdırır ki, bu gün Ermənistan ordusu bizimlə rəqabət apara bilməz: "Ermənistan indi çox ağır vəziyyətə düşüb. İyirmi il Ermənistana rəhbərlik etmiş kriminal diktatura rejimi çöküb. Ancaq əfsuslar olsun ki, Ermənistanda rəhbərliyə gəlmiş yeni simalar öz məsuliyyətini dərk etmir, sarsaq bəyanatlar verirlər və təmas xəttində, Ermənistan-Azərbaycan sərhədində gərginliyə rəvac verən addımlar atırlar. Azərbaycan Ordusu onlara layiqli cavabını verir, verəcək, necə ki, 2016-cı ilin aprel döyüşlərində onları yerinə oturtdu, torpaqlarımızın bir hissəsini azad etdi, bu ilin may ayında Naxçıvan istiqamətində uğurlu əməliyyat nəticəsində böyük ərazi nəzarətimizə keçdi".

Təəssüf doğuran odur ki, Ermənistanın baş naziri Paşinyan populist çıxışları və savadsız siyasi baxışları ilə, elə zənn edir ki, bu yolla nəyəsə nail ola biləcək. Bu isə, bir daha göstərir ki, düşmən ölkə Azərbaycana işğala son qoymaq üçün savaş yolundan başqa bir yol qoymur. İndiyə qədər Azərbaycan tərəfi gözləyirdi ki, beynəlxalq qurumların təzyiqi ilə Ermənistan rəhbərliyi işğal olunmuş torpaqlarla bağlı öz siyasətində və danışıqlar prosesində daha konstruktiv mövqe tutacaq. Amma bu, baş vermir. Əksinə, yeni rəhbərlik daha qeyri-konstruktiv mövqe nümayiş etdirir. Demək olar ki, əvvəlki hakimiyyətdəki rəhbərlik müəyyən bir şəkildə sərt ifadələrlə gündəmdə deyildi. Həmişə işıq yolu qoyurdular ki, danışıqlarla nəyəsə nail ola bilərlər. Paşinyan isə, öz mövqeyi ilə heç işıq yolu da qoymur. Ona görə də, Azərbaycan Prezidenti İlham Əliyev Qarabağla bağlı öz qətiyyətini, ciddiliyini ortaya qoydu, bir daha xəbərdarlığını etdi. Bununla yanaşı, Azərbaycan cəmiyyəti də işğalın davam etdirilməsindən yorulub. Eyni zamanda, Paşinyanın çıxışları sülh yolu ilə işğala son qoyulmasının mümkünsüzlüyünü qətiləşdirir.

### Erməni eksperti: "Paşinyanın addımları onun siyasətdə hələ çox naşı olduğunu göstərir"

Erməni ekspert Artur Kazinyan da bildirir ki, Paşinyanın addımları Qarabağ məsələsində kövrək sülhü təhlükə altında qoyub və savaş istənilən an başlana bilər: "Paşinyanın addımları onun siyasətdə hələ çox naşı olduğunu göstərir və təəssüf ki, belə vəziyyətdə Qarabağ savaşı yenidən təkrarlana bilər. Amma ötən əsrin 90-cı illərindən fərqli olaraq, indi vəziyyət bizim lehimizə deyil. İstər hərbi, istərsə də diplomatiya sahəsində. Azərbaycan bölgədə mövqelərini xeyli gücləndirib. Üstəlik, Rusiya və Türkiyə də Azərbaycanın yanındadır. Ermənistan isə tək qalıb və bu durumda Qarabağ müharibəsinin yenilənməsi bizə müsbət nəsə vəd etmir".

Digər erməni ekspert Artaşes Qeqamyan isə, qeyd edir ki, Nikol Paşinyan hələ də hansısa virtual dünyada işləməyi davam etdirir: "Demək yetər ki, onun çıxış və nitqlərini analiz edərək, bir nəticəyə gəlirsən: ölkə rəhbərinin gerçəklikdən tam ayrı düşdüyü göz qabağındadır. Görünən budur ki, Azərbaycan savaşa hazırlaşır, Paşinyan isə əksinqilabçıları ifşa etməklə məşğuldur. Bu da, Ermənistana baha başa gələcək".

Ermənistanın "Lragir" saytı isə yazır ki, İrəvanın yeni geosiyasi reallığı görməsi çox vacibdir: "Nəzərə alınmalıdır ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rus həmkarı Vladimir Putinlə İdliblə bağlı razılaşdı, əvəzində, Bakı və Ankara Moskvadan Dağlıq Qarabağı alacaq". Sayt yazır ki, Rusiya Türkiyəyə hədiyyə verəcək: "Bu hədiyyənin nə olduğu Rusiya-Ermənistan münasibətlərinin gərginliyi fonunda aydın olur. Bakı və Ankara Moskvanı Qarabağın qaytarılması məsələsinə razı salıb. Ermənistan üçün Rusiyasız Türkiyə və Azərbaycanla mübarizə aparmaq çətin olacaq".

Erməni mətbuatının yazdığına görə, ölkədə yaranmış ağır durumla bağlı erməni ekspertləri bildirirlər ki, hər şeyin bir sonu olduğu kimi, Paşinyanın da oyunbazlığının sonunun zamanı gəlir: "Paşinyan min-bir hiylə ilə hördüyü corabın




toruna özü düşüb. Ölkə fəlakət durumundadır. Repressiv şərait, ağır sosial-iqtisadi durum üzündən ölkəni tərk edənlərin sayı sürətlə artır".

### Ermənistanda yoxsulluq həddi 52 faizi keçib

Ermənistan Milli Statistika Xidmətinin məlumatına görə ölkə əhalisinin yarıdan çoxu yoxsulluq həddində yaşayır: "2008-ci ildə yoxsulluq həddi 27,6 faiz olub, bu gün isə bu göstərici artıq 52 faizi keçib. 2014-cü ildə Ermənistanın 5 min 242 vətəndaşı 44 ölkədən siyasi sığınacaq istəyib. Son iki ildə isə Ermənistandan siyasi sığınacaq üçün 10 min vətəndaş müraciət edib. Siyasi miqrasiya ilə yanaşı, Ermənistandan iqtisadi mühacirət də artıb. Son dönəmlərdə Ermənistandan mühacirət 4 min nəfər artaraq, 47 minə çatıb. Bunun nəticəsidir ki, Ermənistanda bölgələrdə yaşayan əhalinin sayı sürətlə azalan istiqamətdə inkişaf edir. Dramın qiymətdən düşməsi ölkədə bahalaşma prosesini sürətləndirib. Bu gün işğalçı Ermənistanda vəziyyət çox acınacaqlıdır. İqtisadiyyat böhran içərisindədir. Xaricdən axan külli miqdarda yardımlar isə əvvəlki səviyyədə olmadığından, əhalinin sosial durumu daha da ağırlaşıb. İstehsalat dayanıb, sənaye müəssisələri işləmir. Əmək haqları verilmir. Ermənistan əhalisi yoxsulluqdan kütləvi şəkildə ölkəni tərk edir. İşğalçı ölkədə ticarət dövriyəsinin azalması problemləri daha da dərinləşdirir. Ermənistan artıq hər ayı iqtisadi geriləmə ilə başa vurur. Son dövrlərdə ölkədə xarici ticarət dövriyyəsi 222,5 milyon dollara bərabər olub. Bu isə 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 51 faiz azdır".

Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan iflasa sürükləməkdədir. Bu faktdır ki, Ermənistanın heç bir sərvəti olmayan, qonşu ölkələrlə iqdisadi potensialı olmayan və nədən qazanıb iqdisadiyyat quracağı bəlli deyil.

Ən maraqlı məqam isə, artıq erməni ekspertləri aydın şəkildə bildirirlər ki, nə qədər ki, Ermənistan Azərbaycanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi, siyasi məhrumiyyətlərə, məşəqqətlərə düçar olacaq. Bunu dərk etmək çətin olmasa da, N.Paşinyan anlamaq istəmir. Çünki müstəqil deyil, böyük güclərin, erməni lobbisinin əlində oyuncaqdır. Qondarma gedişlər etməklə, itirməkdə olan siyasi imicini möhkəmləndirməyə çalışır.

**A.SƏMƏDOVA**

# Müsavat partiyasında “satqın” ittihamı

## Arif Hacılı onunla olmayanlara qarşı siyasi diskriminasiya siyasəti aparır

***Müsavat partiyasında eks-başqan İsa Qəmbərin Arif Hacılı ilə əvəzlənməsindən sonra partiya daxilində kəskin qarşıdurmalar, qrup maraqları uğrunda savaşlar daha da gərginləşib və nəticədə, baş verən istefalar bu deyilənləri özündə kifayət qədər ehtiva etdi. Müsavatdaxili klanlaşma, bütün bunlara baxmayaraq, davam etdi və hazırda da həmin situasiya öz mövcudluğunu qoruyub-saxlamaqdadır. Xüsusilə, başqan A.Hacılının nəzarətində olan qrup onun qərar və əmrlərinə tabe olmayan digər qruplara qarşı sıxışdırma kampaniyasını sərt şəkildə davam etdirir. Daha doğrusu, bu gün başqana tabe olmayanlara “xəyanətkar”, “satqın” damğası vurularaq, onlar, sözün əsl mənasında, partiyadaxili siyasi diskriminasiyalara məruz qalırlar.***

Əgər xatırlasaq ki, həmin siyasət A.Hacılının rəhbər posta gətirilməsindən sonra başlayıb və bu gün uzun illər ömürlərini Müsavat partiyasına həsr etmiş şəxslərin çoxu bu partiyadan ya öz xoşları, ya da zorən istefaya gediblər, onda bu iddianın özünü nə qədər təsdiq etdiyini əminliklə deyə bilərik.

Müsavat Divanın üzvü Yadigar Sadıqlıdan Arif Hacılı klanına: “Müsavat partiyası üzvlərinin qapalı qrupunda başqan Arif Hacılının xeyir-duası ilə məni satqın, öyrədilmiş və Müsavatı parçalayan elan etmək uğrunda yarış gedir”

Beləliklə, növbəti hədəf Müsavatın divan üzvü Y.Sadıqlıdır. “SƏS” qəzeti xəbər verir ki, Müsavata yaxınlığı ilə seçilən mətbu orqanlar sözügedən məsələnin maraqdoğurucu tərəflərini aşkara çıxarıb. Belə ki, siyasi təşkilatın rəhbərliyinə daxil olan şəxslər sosial şəbəkələrdə bir-birinə ağır sözlər, həqarət və ittihamlar yağdırırlar. Bu məsələdə daha çox canfəşanlıq edən isə, məhz A.Hacılı klanında yer alan başqan müavini Səxavət Soltanlıdır. Partiyanın Facebook sosial şəbəkəsindəki qapalı qrupunda, aylardır ki, davam edən qarşıdurma indi açıq müstəviyə keçid alıb və ictimailəşdirilib. Özünə qarşı artan basqılara, hücum və təhdidlərə dözə bilməyən Y.Sadıqlı qapalı qrupdan çıxıb, fikirlərini hər kəsin görə biləcəyi şəxsi səhifəsində yazıb. SİTAT: “Müsavat partiyası üzvlərinin qapalı qrupunda başqan Arif Hacılının xeyir-duası ilə məni satqın, öyrədilmiş, Müsavatı parçalayan elan etmək uğrunda yarış gedir. Kimlərin etdiyini soruşmayın, əksəriyyətini heç tanımazsınız, profillərində hakimiyyət əleyhinə söz tapmazsınız”.

Nəticə etibarı ilə, S.Soltanlının onu istər dolayısı, istərsə də birbaşa “satqın” adlandırmasına cavab verən Y.Sadıqlı sözügedən statusu vasitəsi ilə qarşı tərəfin satqın olduğunu və hakimiyyətə qarşı loyal münasibət sərgilədiyini iddia kimi irəli sürüb.

### Arif Hacılı klanının dilindən başqan müavini Səxavət Soltanlı danışıb: “Bu, müsavatçıları təhqir etməkdir”

Ancaq S.Soltanlı da boş dayanmayıb və Y.Sadıqlının statusuna öz tərzində cavab yazıb. SİTAT: “Əlbəttə, ürək ağrısı ilə bu statusu yazıram. Söhbət Müsavat partiyasının və yüzlərlə ləyaqətli və vicdanlı müsavatçıya atılan böhtandan gedirsə, cavab verməmək mənim kitabımda yoxdur. Deməli belə, Yadigar Sadıqlı, bütünlüklə, Müsavat məclisini təhqir etdikdən, provakativ hərəkətlər etdikdən sonra növbəti dəfə müsa-



vatçılar haqqında böhtan və yalan yayması, güya müsavatçıların kiminsə göstərişi ilə ona “satqın” dediklərini bildirib. (Belə bir fakt yoxdur, mümkün deyil-müəllifin fikri-R.N.) Bu, müsavatçıları təhqir etməkdir. Məsələnin mahiyyəti odur ki, məclisdə etdiyi dözülməz davranışdan sonra hər kəs onun bu davranışını qınadı, ondan səhv etdiyini etiraf edib, üzr istəməsini tələb etdilər. O da, müsavatçılardan dəstək görmədiyi üçün, əsasən, anti-müsavatçılardan və bu söhbətlərin detallarını bilməyən səmimi insanları çaşdırmaqla, onların dəstəyini qazanmaq, Müsavat partiyasına zərər vurmaq bahasına yalan və böhtan dolu status yazdı. Statusa və mövzuya əlavə olaraq. Siz siz olun, həyatda yaşadığı halda, fəaliyyət göstərdiyi müddətdə heç kim haqqında yüksək fikirlər yazıb özünüzü yazdıqlarınızın girovuna çevirməyin. Siz siz olun, yalan-böhtan danışmayın. Bir dəfə yalan-böhtan danışdınızsa, məcbursunuz ki, növbətilərini uydurasınız”.

### Arif Hacılı yenidən başqan olmaq şansını itirib, İsa Qəmbərin isə daha 25 ili var...

Qarşılıqlı ittihamların ardınca qruplaşmalar arasında daha kəskin polemikalar təhqirlərə çevrilib və nəticədə, ən ağır ifadələrə belə yer verilib. Bu isə, bir daha təsdiq edir ki, A.Hacılı rəhbərlik etdiyi siyasi təşkilatı, ümumiyyətlə, idarə etmək qabiliyyətini itirib və qarşıdakı qurultayda yenidən başqan seçilməsi perspektivi sıradan çıxıb. Əgər əvvəlki qurultayda onun başqan seçilməsində eks-başqan İ.Qəmbərin saxtakarlıqları varıydısa, növbəti seçkilərdə həmin dəstək olmayacaq. Hətta mümkündür ki, sabiq başqan yenidən Müsavat rəhbərliyinin ipini öz əlinə alsın və hər şeyə, necə deyərlər, sıfırdan başlasın. Hər halda, 25 ilə yaxındır ki, müxalifətdə bir addım ata bilməyən Müsavat rəhbərliyi sıfırdan başlayarsa, deməli, qarşıda onu daha 25 illik yerində saymaq rüsvayçılığı gözləyəcək. Əlbəttə ki, həm də fiziki imkanları buna çatarsa...

**Rövşən RƏSULOV**

# “REAL”-”Milli Şura” qarşıdurması yeni müstəviyə keçir

Son günlər müxalifət düşərgəsində partiyalararası qarşıdurmalar, funksionerlərin bir-birinə ittihamları daha geniş xarakter alıb. Xüsusilə də, “REAL” partiyasının sədri İlqar Məmmədovla “Milli Şura”nın rəhbəri Cəmil Həsənli arasında yaranan qarşıdurma və tərəflərin bir-birini satqınlıqda və xəyanətdə günahlandırmaları daha çox maraqlara səbəb olub. Çünki bu iki qurum arasında müxalifətin aparıcı qurumu olmaq uğrunda savaş gedir. Söhbət etdiyimiz müsahiblərimiz İlqar Məmmədovla C.Həsənli arasında dava-dalaşı AXCP sədri Əli Kərimlinin qızışdırdığını, sonuncunun bu məsələdə marağının hər iki şəxsin imicini ləkələyərək, gözdən salmaq olduğunu bildirdilər.

### “Yurddaş” partiyasının sədri Mais Səfərli: “Əli Kərimli Cəmil Həsənli vasitəsi ilə İlqar Məmmədovu əzməyə çalışır “



- Dağıdıcı müxalifət düşərgəsində bu millətə və dövlətə düşmən kəsilənlər, erməni maraqlarından çıxış edənlərdir. Onlar bu millətin övladları olsalar da, erməni dəyirmanına su tökmək yolunu tutublar. Eyni zamanda, müxaliflər öz aralarında da ortaq məxrəcə gələ bilmirlər. Hər zaman önə çıxmaq üçün bir-birini sıradan çıxarmağa çalışıblar. Bu baxımdan, aralarında rəqabət və qarşıdurma mövcuddur. Arasıra görüntü xatirinə mehribanlaşırlar və birgə toplantıların iştirakçıları olurlar. Bu “dost”luq qısamüddətli olur, az sonra səngərlər qazılır və bir-birini topa tuturlar. Ümumiyyətlə, müxalifət düşərgəsini təmsil edən şəxslər arasında mehribançılıq olmur. Sadəcə olaraq, xaricdə olan havadarlarına bir yerdə olduqlarını göstərmək üçün hansısa bir masa arxasında otururlar. Yəni müxalifətçilər ortaq məxrəcə gəlməməri görüntüsü yaratmaları xatirinə oturduqları masa arxasında mehriban düşmənlər obrazı yaradırlar. Əslində isə, bunların arasında çox ciddi ziddiyyətlər var. Bu da, ondan qaynaqlanır ki, radikal müxalifət düşərgəsində olan siyasi təşkilatlar normal siyasi fəaliyyətlə məşğul deyillər. Bəlkə də, çirkin siyasətin mahiyyətini həmin düşərgəni təmsil edən şəxslərin çoxu bilmir. Deməli ki, müxalifət liderlərinin istəyi öz düşərgələri daxilində birinci olmaqdır. Radikal müxalifət düşərgəsində birinci olmaq iddiası onları rüsvayçı vəziyyətə salıb. Əslində, müxalifət liderləri birincilik uğrunda bir yarışa çıxıblar və biri digərini sıradan çıxarmaq üçün əlindən gələni edir. Elə bu mübarizə ilə də yaşayırlar. Bu iddia gülünc bir məsələdir. Çünki siyasi partiyaların siyasi arenada birinciliyini seçkilər müəyyən edir. Bu gün ölkəmizdə birinci partiya Azərbaycan Prezidenti İlham Əliyevin başçılıq etdiyi və Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasıdır. Bu reallığı hər kəs çox gözəl bilir. Aparılan sorğular da bunu təsdiqləyir və bu gün YAP hakim partiyadır, hakimiyyətdədir, xalqın dəstəyi ilə Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. Yəni bu faktdır, gerçəklikdir, bu siyasət bizim gerçəkliyimizdir. Xalq Prezident İlham Əliyevi dəstəkləyir və öz Prezidentinin yanındadır. Müxalifətin isə xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Çünki xalq müxalifətin çirkin əməllərini görür və erməni lobbisi ilə iş birliyinə malik olmasına dair məlumata malikdir.

### “Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova: “İlqar Məmmədov Cəmil Həsənliyə qarşı ağır ittihamlar irəli sürüb”

- Azərbaycan dövlətinin humanist siyasəti nəticəsində İlqar Məmmədovun həbsdən azad edilməsi müxalif düşərgədə heç də xoş qarşılanmadı. Xüsusilə də, bu tendensiya “Milli Şura” və AXCP-də daha qabarıq hiss edilir. Çünki İ.Məm-



mədov da Ə.Kərimli kimi “müxalifətin əsas siması mənəm” adına iddialıdır. Əgər son günlərdə sosial şəbəkələrdə aparılan müzakirələrə diqqət etsək, “REAL” hərəkatı və “Milli Şura”nın rəhbərliyində təmsil olunanlar arasında ciddi qarşıdurmanın mövcud olduğunu görərik. Hər iki tərəf bir-birlərinə qarşı ağır ittihamlar irəli sürür. Aşağı səviyyədə başlayan bu qarşıdurma artıq hər iki qurumun rəhbərliyində təmsil olunan şəxslər səviyyəsinə çatıb. C.Həsənli ilə İ.Məmmədov arasında yaşanan olaylara və ittihamlara da bu kontekstdən yanaşmaq lazımdır. Hər iki təşkilat özünü siyasi cəhətdən daha fəal göstərməyə çalışır. Bu fəallığın isə başlıca məqsədi xaricdən gələn qrantlardan daha çox pay qoparmaqdır.

### Fəlsəfə doktoru İlqar Orucov: “Əli Kərimli Cəmil Həsənlinin ipini boş buraxmaz”

- Son günlərdə İlqar Məmmədovla Cəmil Həsənli arasında yaranmış qarşıdurmada hər iki tərəf bir-birinə qarşı xeyli sərt ittihamlar səsləndirir. Bu cür halın baş verməsi, fikrimcə, C.Həsənlini idarə edən Ə.Kərimlinin növbəti göstərişi ilə baş verir. Ümumiyyətlə, Ə.Kərimlinin xarakterinə xas olan qısqanclıq, özündən başqa kimsəni qəbul etməmək, zaman-zaman bir cəbhədə olduğu insanları aradan götürmək halları burada da özünü göstərir və



məqsəd özlərini daha real müxalifət rolunda xaricə təqdim etməkdir. Bu adamları birləşdirən məqamlar hər dəfə heçə alınır, ən sərt şəkildə qarşılıqlı ittihamlar, təhqirlər irəli sürmək bu gün özlərinə müxalifət deyən adamların sanki həyat tərzinə çevrilib. Fikrimcə, C.Həsənlini idarə edən Ə.Kərimli hazırkı qarşıdurmanın başında dayanıbdır. Heç zaman Ə.Kərimli C.Həsənlinin ipini boş buraxmaz. Məhz Ə. Kərimlinin bu tipli hərəkətləri müxalifətin, az sayda olsa da, fəallarının birləşməsinə hər zaman mane olub. Hər iki tərəfin iddiaları, ambisiyaları qabiliyyətlərindən, bacarıqlarından qat-qat yüksəkdə dayanır.

**GÜLYANƏ**

# Aslan İsmayılov vəkil yox, "facebook dəllalıdır"

## *Yenə də şər-böhtan atmaqda davam edən Aslan İsmayılov, heç pişik olmadığı halda, özünü "aslan" gözündə görür*



***Qondarma vəkil Aslan İsmayılovun adının çəkilməsi yetərlidir ki, ona olan mənfi münasibət özünü sifət mimikalarında əks etdirsin. Bu başabəla "hüquqşünas" indi öz sahəsindən daha çox sosial şəbəkələrdə layk toplamaq azarına tutulub. Bu, onun nə birinci, nə də sonuncu "işidir". İstənilən sitiuasiyadan şou düzəltməkdə usta olan bu şəxs indi də başlayıb 162 saylı məktəbdə baş verən məlum hadisə ilə bağlı sosial şəbəkələrdə özünün "düşüncəsini" nümayiş etdirməyə.***

Ağılsız açıqlamaları və statusları ilə hadisəyə münasibət bildirərək, vurğulayır ki, hakimiyyət ev verdiyi jurnalistlərdən bu olayı ört-basdır etmək üçün istifadə edir. Bu qədər həyasızlığı görəndə, sakit ola bilmirsən və az qala, "yalansa..." demək istəyirəm, çünki bu sənin simandır, A.İsmayılov.

Ən böyük nemətlərimizdən biri ölkəmizdə olan sabitlikdir. Ancaq sənin kimilərin pişik cildinə girərək ölkəmizi qarışdırmaq istəyi baş tutmayıb və tutmayacaq da. Elə özünü dağıdıcı müxalifət adlandıran AXCP sədri Əli Kərimli, sabiq Müsavat başqanı İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, "Milli Şura"nın sədri Cəmil Həsənli və Avropada sülənənlər - Vidadi İsgəndərli, Orduxan Teymurxan, Tural Sadıqov və onlara pərçimlənmiş bəzi qüvvələr sosial şəbəkələrdə "demokrat" maskası altında ölkəmizin əleyhinə çirkin təbliğat kampaniyasına rəvac versələr də, xalq onların burnuna elə çırpır ki... Çünki bu xalq heç vaxt səviyyəsiz, siyasət adına ləkə olan fəaliyyəti və ən əsası, xəyanəti və satqınlığı bağışlamır!

Öz cılız ambisiyalarını, məkrli niyyətlərini reallaşdırmaq üçün milli maraqları heçə sayaraq, Azərbaycan əleyhinə fəaliyyət göstərməkdə başqa nə marağı ola bilərdi? Pul, pul, yalnız pul. Təbii ki, belə fəaliyyət erməni lobbisinin mənafelərinə də xidmət edir. A.İsmayılov, vətəndaşlarımıza xaos və anarxiya yox, sabitlik və inkişafın davamı lazımdır. A.İsmayılova, sosial şəbəkələrdə atdığı böhtanlara görə, ən azı, 4-5 məhkəmə işi açmaq olar. Sübutun, faktın olmadığı halda, başqasına qarşı ittiham irəli sürmək olmaz. Bir məsələni də deyim ki, ay özünü "aslan" sayan, pişik kimi də görünmürsən. Belə olmasaydı, sənin kimi mənəviyyatsızlar guya məktəbdə baş verənləri ört-basdır etmək üçün hakimiyyət dairələri ev verdiyi jurnalistlərdən istifadə edir. Bax, sənin həyat kredon budur.

### Siyasət dəllalı yoxsa, "hüquqşünas"?

A.İsmayılov öz "məşhurluğunu" daha çox facebook-da şər-şəbədə ustalığı ilə qazanıb. Harda aş varsa, A.İsmayılov orda başdadır. Daim hansısa sahələrdə guya çatışmazlıq, korrupsiya, yeyinti halları aşkar edib və sosial şəbəkələrin verdiyi geniş imkandan sui-istifadə edərək, şər-böhtan kampaniyası aparır. Konkret nə iş gördüyünü, nə istədiyini isə özü belə bilmir. Bu yerdə böyük yunan filosofu Sokratın öz həyatı bahasına ödədiyi hüquqa sayqısını nümunə gətirmək yerinə düşərdi. Rəvayətə görə, çıxarılacağı məhkəmədə ölüm hökmüylə cəzalandırılacağı bilinən filosofa tələbələri gizlənməyi təklif edirlər. Sokratın cavabı isə konkret olur: "Mən başqalarına hüquqa hörmət göstərməyi təlqin etdiyim halda, özüm onun qərarından qaça bilmərəm. Əks-halda, özüm yaşayar, sözüm ölər. Sözünün heç bir dəyəri qalmayan diridənsə, sözü əbədi yaşayan ölü olmaq daha şərəflidir".

Ancaq sən A.İsmayılov, heç Sokratın yanından yel də olub keçə bilməzsən. Sözsüz ki, öz ləyaqətinə, şərəfinə hörmət edən adam böhtanlarla "aslan" olub, "şərəf" qazanmır. Sənin kimi oyunbaz və böhtançı "hüquqşünas", yaxşı olar ki, öz gözü tirli olan sənin kimilər, özgə gözdə qıl axtarmasın.

Bir daha demək istərdim, ay aslan kimi vüqarlı bir heyvanın adını daşıyan "insan", sən heç pişik qədər görünə bilməzsən və dediyin böhtanlara görə isə, gec-tez cəzanı alacaqsan. Unutma ki, xalq sənin kimi nankorların bu sağlam cəmiyyətdə yaşamalarını belə qəbul etmir. Bir daha vurğulamaq istərdim ki, Aslan İsmayılov təkcə bu ermənipərəst mövqeyinə görə Azərbaycan xalqı və hüquq orqanları qarşısında cavab versin.

***Rəfiqə HÜSEYNOVA***

# Müxalifətin qatarı gedib, relsləri isə sıradan çıxıb

## *Didişmələr, qapışmalar və ziddiyyətlər nədən xəbər verir?*

***Bu günlərdə Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzovun radikal müxalifəti ittiham edən fikirləri, bir daha belə nəticəyə gəlməyə zəmin yaratdı ki, əslində, uzun illərdir düşərgədə var-gəl edərək, əslində, yerlərində addımlayan "liderlər" həm şəxsi ambisiyaları, həm də digər çoxsaylı ucuz siyasi baxışları səbəbindən, özlərini rüsvay etməkdədirlər. O cümlədən, bir çoxlarının dövlət əleyhinə, eyni zamanda, xarici təşkilatlar qarşısında öhdəliklər götürmələri barədə mövcud olan faktlar reallıqla bəlli fərdlərin kimliklərini bir daha ortaya qoyur.***



### Siyavuş Novruzov: "Bəzilərinin 70 yaşı var, lakin hələ də öz yollarını tapa, nə istədiklərini özləri üçün aydın edə bilməyiblər"

"Meydan hərəkatından başlayaraq həmişə separatçı mövqe tutmuş insanlar, bir təşkilatdan çıxıb, o birinə üzv olur və ya ayrı-ayrı təşkilatlar yaradırlar. "Xalq hərəkatı", "Milli Şura" kimi hər cür bər-bəzəkli adlar tapırlar, ancaq hamısı eynidir, burada kənar adamlar yoxdur" deyə qeyd edən millət vəkili Siyavuş Novruzov digər amilə də toxunaraq, bildirib ki, düşərgədə digər partiyalardan uzaqlaşdırılmış, çıxarılmış, qovulmuş, yaxud köhnə təfəkkürdən uzaqlaşmamış insanlar da mövcuddur: "Bəzilərinin 70 yaşı var, lakin hələ də öz yollarını tapa, nə istədiklərini özləri üçün aydınlaşdırıblar. Bu insanlar arasında kəskin şəkildə fikir ayrılığı, qarşıdurma var və hər birində ciddi şəkildə mənəm-mənəmlik, özündənrazılıq düşüncəsi yaranıb. Yaxşı ki, onların bu hərəkətləri göstərilir və insanlar vaxtilə Azərbaycana kimlərin rəhbərlik etdiyini və yenidən rəhbərlik etmək arzusunda olduğunu bir daha görürlər".

### Xalq öz dövlətinə arxalanır və ölkə rəhbərliyinin inqilabi islahatlarının şahidi olmaqla yanaşı, bu islahatlardan yararlanır

Maraqlıdır ki, xalqın çox böyük qisminin bu siyasi ünsürləri rədd etmələrinə, qəbul etməmələrinə rəğmən, onlar hələ də aksiyalar keçirməklə, "mən də varam" prinsipinə xidmət etməkdən çəkinmirlər. Halbuki belələrinin varlıqları elə yoxluq kimi bir şeydir. Məsələn, Bakı Şəhər İcra Hakimiyyətinin mitinqə razılıq verilmədiyi təqdirdə, müxalifətin başqa bir aksiyanın keçirilməsinə qərar verməsi, ondan xəbər verir ki, bu qrupların məqsədi mövcud vəziyyətdən yararlanaraq, ictimai rəyi manipulyasiya etməkdir. Daha dəqiq desək, onlar özlərini elə göstərməyə çalışırlar ki, guya vətəndaşların problemlərinin həlli üçün ictimaiyyəti ayağa qaldırmaq istəyirlər. Halbuki xalq öz dövlətinə arxalanır və ölkə rəhbərliyinin inqilabi islahatlarının şahidi olmaqla yanaşı, bu islahatlardan yararlanır. Bir sıra sosial və s. problemlər aradan qaldırılır, xalqın daha yaxşı yaşaması, rifah halının daha da gücləndirilməsi üçün bütün imkanlardan istifadə edilir, layihələr gerçəkləşdirilir. Bu baxımdan, radikallar və köhnə təfəkkürlülər, başa düşə bilməyiblər ki, onların mitinq çağırışlarının ictimai rəydə heç bir əks-sədası yoxdur, bundan sonra da, ümumiyyətlə, olmayacaq.

### İlqar Məmmədov: "Belə "rəqib"lə şou düzəltməyə nə var ki?"

Daha bir reallıq düşərgədə baş verən qarşıdurmalar, didişmələr, ziddiyyətlər və dava-dalaşlardır. Özlərinə mövqe seçmək üçün düşmənçilik edən siyasi müxalifət təmsilçiləri arasında son vaxt "Milli Şura" və "REAL" partiyasının savaşı önə çıxıb. "Milli Şura" sədri Cəmil Həsənli "REAL" sədri İlqar Məmmədovu və ətrafını satqınlıqda ittiham edib. Qarşılıqlı ittihamlar isə özünün pik həddinə çatıb. Məsələn, İlqar Məmmədov ona və partiyasına qarşı səslənən ittihamları belə cavablandırıb. Sİ-TAT: "Cəmil Həsənlinin "REAL"-ı satqınlıqda ittiham etməsi indi tam aydınlaşır ki, nəyə görə hakimiyyət 2013-cü ildə məni həbs edib prezident seçkisindən kənarda qoydu, Cəmil Həsənlini isə "rəqib" təyin etdi. Belə "rəqib"lə şou düzəltməyə nə var ki!"

O cümlədən, "Azərbaycan Xalq Hərəkatı" deyilən qurumda da parçalanmanın yaranması, İsgəndər Həmidov, Rəhim Qazıyev, Tural Abbaslı, Mirmahmud Mirəlioğlu kimi müxalifətçilərin bir-birlərini, sözün əsl mənasında, qırması radikal müxalifətin aşkar sifətini ortaya qoyub. Bu reallıqlar isə, ümumilikdə, belə nəticəyə gəlməyə əsas verir ki, artıq onların qatarları siyasi səhnəni çoxdan tərk edib. Hətta üzərində dayandıqları relsləri belə sıradan çıxaraq, yararsız hala düşüb. Əlbəttə ki, bütün bunlar düşərgənin hansı dərəcədə siyasi məhvə düçar olduğunun bariz və danılmaz göstəricisidir.

***Rövşən NURƏDDİNOĞLU***

# Qadınlara qarşı ayrı-seçkiliyi aradan qaldıran qanunvericilik bazası

***"Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın 11-ci maddəsinə əsasən, qadınlara müəyyən sahələrdə və ya saatlarda (məsələn, gecələr) işləməyi qadağan edən qarnunvericilik elmi subutlarla dəstəklənməlidir. Əks halda, belə qanunlar ayrı-seçkiliyə yol verir və 11-ci maddəyə ziddir. Beləliklə, məcəllənin qadınların əmək hüququ və onun həyata keçirilməsi təminatlarına həsr edilmiş 37-ci fəsil qadınların istehsalat və reproduktiv funksiyalarını uzlaşdırmaq üçün hüquqi bazanı təmsil edir. Yeri gəlmişkən, hamilə və ya himayəsində üç yaşınadək uşağı olan qadının əmək müqaviləsinin əsassız ləğv edilməsinə görə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 164-cü maddəsinə əsasən, pul cəzası nəzərdə tutulmuşdur.***

Sevinc Abbasova yazır: "Əmək Məcəlləsində hamilə qadınların və südəmər uşaqlı qadınların sosial müdafiəsi ilə bağlı olan müddəalar 2003-cü il iyunun 17-də qəbul edilmiş "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikasının Qanununda, müəyyən mənada, tamamlanmışdır. Həmin qanunun 5-ci maddəsində göstərilir ki, "hamilə qadınların və uşaq əmizdirən anaların sosial müdafiəsi onlara düzgün əmək, istirahət və qidalanma rejiminin yaradılmasından, vaxtlı-vaxtında profilaktik və tibbi-sanitariya yardımı göstərilməsindən, stress yaradan amillərin aradan qaldırılmasından, ana patronajı xidmətinin həyata keçirilməsindən, təbliğat işinin aparılmasından, döşlə əmizdirmə ilə bağlı tibbi maarifləndirmədən, eləcə də, digər tədbirlərdən ibarət idi. Bir yaşınadək uşağı olan aztəminatlı ailələrə məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti tərəfindən müəyyən edilən əlavə aylıq müavinət verilir".

Əmək Məcəlləsinin 31-ci maddəsində "Kollektiv müqaviləyə daxil edilmiş tərəflərin qarşılıqlı öhdəlikləri" siyahısında iş yerində və ya işlə əlaqədar olaraq, seksual təhrik məsələlərinə dair izahat işi aparılmasına və informasiya verilməsinə yardım göstərilməsi və belə təhriklərin qarşısının alınması, işçiləri bu cür davranışdan qorumaq üçün bütün lazımi tədbirlərin görülməsi ilə əlaqədar məsələ də yer almışdır.

Beləliklə, Azərbaycan Respublikasının Əmək Məcəlləsində gender hüquq bərabərliyi prinsipi dönmədən həyata keçirilir. Bu, bir tərəfdən, sovet modernləşməsi strategiyaları çərçivəsində gerçəkləşdirilən qadın emansipasiyası kursu nəticəsində bərqərar olmuş qadınların iqtisadiyyatda yüksək səviyyədə təmsil olunması və onların xalq təsərrüfatının müxtəlif sahələrində məşğulluğunun yüksəldilməsi, peşə təhsilinin artırılması, ixtisaslara yiyələnməsi kimi praktikalara varisliyi sərgiləyirdi. Digər tərəfdən isə, ölkəmizin əmək qanunvericiliyi sahəsində qəbul etdiyi beynəlxalq sazişlərin, o cümlədən, BMT və BƏT Konvensiyalarının, sadəcə, sözdə deyil, əməli olaraq gerçəkləşdirməsinə bariz örnəkdir.

Lakin qadınların hüquqi cəhətdən təsbit olunmuş əmək haqları bəzən əməli maneələrlə üzləşirdi. QPDK-nın CEDAW Komitəsinə təqdim etdiyi məruzədə deyildiyi kimi, qadınların fizioloji xüsusiyyətlərini nəzərə alan və onlara güzəştlər verən qanunların mövcudluğu praktikada ona gətirib çıxarır ki, bir sıra müəssisələr qadınları yox, kişiləri işə götürməyə üstünlük verirlər. Bəzi hallarda, qanunlara sadəcə, əməl olunmur, bu, xeyli sayda qadının zərərli şərtləri olan işlərdə çalışmasında özünü göstərir.

S.Abbasovanın fikrincə, Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş və 2000-ci il iyulun 1-dən qüvvəyə minmiş Ailə Məcəlləsi də qadın hüquqlarının keşiyində duran önəmli hüquqi-normativ aktdır. O nikahın bağlanması, nikaha xitam verilməsi və onun etibarlı sayılması qaydaları və şərtlərini müəyyən edir, ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar), eləcə də, ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda və həddə başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, habelə, valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəyə götürülməsi qaydalarını müəyyən edir. Ailə münasibətlərinin hüquqi tənzimlənməsinin əsasında qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsipləri durur. Sözügedən prinsiplərə uyğun olaraq, əvvələ, nikahın bağlanması üçün başqa şəxslərin razılığı tələb olunmur. İkincisi, ər və arvadın ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqları var, üçüncüsü, ailə həyatının islənilən məsələsi birtərəfli qaydada yox, məhz qarşılıqlı razılıq əsasında həll olunmalıdır.

Digər Azərbaycan qanunvericilik aktları kimi, hüquq bərabərliyi prinsipini təməl prinsip kimi götürən bu məcəllə 2-ci maddəsi ilə, yuxarıda göstərilən müddəalardan əlavə imperativ formada ailə münasibətlərində sosial, irqi, dini, milli və dil mənsubiyyətinə görə, vətəndaşların hüquqlarının hər hansı formada məhdudlaşdırılmasını yasaqlayır. Bu zaman, xüsusi olaraq, vurğulanır ki, nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınır, dini kəbinkəsmə (dini nikah) isə, hüquqi əhəmiyyətə malik deyildir (maddə 1.4 və 1.5). Bu, dövlətimizin dünyəvi təbiətindən nəşət tapan prinsipial əhəmiyyətli tezisdir. Bu müddəa, ondan irəli gəlir ki, Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxmdan tənzimlənməsi dövlət inhisarındadır və yalnız dövlət orqanları tərəfindan həyata keçirilir. Ona görə də, başqa üsullarla bağlanmış nikahın hüquqi əhəmiyyəti yoxdur. Yeri gəlmişkən, nikah münasibətlərinin, müstəsna olaraq, dövlət orqanında qeydə alınması haqqında tələb "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyanın 16.2 maddəsində irəli sürülmüşdür. 21 saylı ümumi tövsiyə də, öz növbəsində, nikahın dövlət orqanlarında qeydə alınmasını tövsiyə edir. Nikahın qeydiyyata alınması dövlətlərə minimum nikah yaşının pozulmamasına və çoxnikahlılığa yol verilməməsinə nəzarət etməyə imkan verir. Bu tələb, eləcə də, boşanmalar zamanı qadınların hüquqlarından yararlana bilməməsinin qarşısını alır.

Məcəllədə, ilkin olaraq, Azərbaycan Respublikasında nikah yaşı kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş müəyyən olunmuşdur (maddə 10). Lakin kişilər və qadınlar üçün nikah yaşında fərq beynəlxalq təşkilatlar tərəfindən insan hüquqları nöqteyi-nəzərindən mənfi qiymətləndirilirdi, belə ki, Azərbaycanın qoşulduğu beynəlxalq Konvensiyalarda kişilər və qadınlar üçün nikah yaşı eyni müəyyən edilməşdir. Bu uyğunsuzluq 2011-ci il noyabrın 15-də "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunun qəbul edilməsi ilə aradan qaldırıldı. Ona əsasən, nikah yaşı cinsi fərqi qoymadan unifikasiya edilirdi və 18 yaş müəyyənləşdirilirdi. Yeri gəlmişkən, nikah yaşının 18 yaş müəyyən edilməsi tam mülki fəaliyyət qabiliyyətinin yaranması yaşı ilə üst-üstə düşür, belə ki, sözügedən məcəllənin 49.1 maddəsinə görə, 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar.

Məcəllənin 15-ci maddəsi pozitiv ayrı-seçkilik prinsipinə uyğun gəlir. Arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz. Belə bir maddə uşağın və ananın maddi və mənəvi hüquqlarının və sağlamlığının mühafizə edilməsi məqsədlərinə xidmət edir.

Sözügedən məcəllə-qadının azad və tam razılıq əsasında nikaha daxil olmasına təminat verir (maddə 2.3), zor altında, məcburiyyət yolu ilə bağlanmış nikahı etibarsız sayır (maddə 26.1.3), çoxnikalılığı (maddə 12.0.3), habelə, uşaq nikahını (maddə 26.1) yasaqlayır, soyad seçməkdə qadınların hüquq bərabərliyini tanıyır (maddə 30.1), ər-arvadın ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarını təsdiqləyir (maddə 29.1), eləcə də, əmlak üzərində sahiblik almaq, idarə etməklə sərəncam, istifadə və satmaq, müqavilədə başqa hal nəzərdə tutulmadığı təqdirdə, ər-arvadın ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı pay hüquqlarının bərabərliyini təsbit edir (maddə 32-37).

Yeri gəlmişkən, qadınların əmlak hüququna dair müddəalar Azərbaycan Respublikasının Mülki Məcəlləsində də inkişaf etdirir. Sonuncusu cinsi fərq qoymadan, hər bir vətəndaşın müqavilə bağlamaq, əmlaka (o cümlədən, daşınar və daşınmaz) sahib olmaq və idarə etmək hüququnu təsbit edir.

Ailə Məcəlləsi, həmçinin, qadınlar üçün onların öhdəliklərinini, gəlirini, qazanc imkanlarını nəzərə alaraq, aliment müəyyən etmişdir (maddə 22, 84, 85, 86). Lakin bu zaman arvadın aliment tələb etməsi üçün zorakılığın tətbiq olunduğu və dözülməz ailə münasibətlərində ayrı yaşamağa məcbur olması halları nəzərdə tutulmur. "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyaya tam uyğunluq isə qadının ailə daxilində dözülməz şərait mövcud olduqda ailəsini rahat tərk edə bilməsi üçün müvafiq orderin verilməsini təmin edəcək konkret müddəanın mövcudluğunu tələb edir. Konvensiya üzrə müvafiq Komitənin 19 saylı ümumi tövsiyəsində, bu məqama aydınlıq gətirilərək, qeyd edilmişdir ki, bir çox qadınlar iqtisadi müstəqilliyinin və yetərli maddi vəsaitin olmaması ucbatından, zorakı və dözülməz mühasibətlərdə qalmaqda davam edirlər. Məhz belə vəziyyətə düşmüş qadınlar üçün alimentin müəyyən edilməsi, qadınların ailəni tərk etmək seçimini dəstəkləyər və iqtisadi asılılığın qadının təhlükəsizlik şəraitində yaşamaq hüququ üzərində dominantlıq etməməsinə təminat verər.

Məcəllənin bir sıra maddələri ilə qadınların qəyyumluq, himayəçi, himayədar və uşaq övladlığa götürmə baxımından, hüquqi bərabərliyini nəzərdə tutan maddələr ehtiva edir (maddə 117, 118.1, 137.1, 144.3). Valideynlər öz uşaqları barəsində bərabər hüquq və və vəzifələrə malikdirlər (maddə 56)."

Göründüyü kimi, Ailə Məcəlləsində qadın hüquqları ilə bağlı müddəalar "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın ailə münasibətlərinə dair müddəalarına böyük ölçüdə cavab verir. Müəyyən uyğunsuzluqlar isə cüzi xarakter daşıyır və prinsipial önəmə malik deyil. Həmçinin, CEDAW Komitəsinin faktiki nikah münasibətlərinin tanınmasına dair 21 saylı ümumi tövsiyəsi də sözügedən məcəllədə təmin edilməmişdir, zira belə bir vəziyyət ailə institutunun təməl prinsiplərinə ziddir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs



## 400 milyon ver, Koutinyonu al!

“Barselona”nın prezidenti Xosep Mariya Bortomeu Filipe Koutinyonun komandadan ayrılacağı haqda yayılan xəbərlərə münasibət bildirib.



Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı məlumata görə, o, 26 yaşlı hücumçunun hələlik komandada qalacağını deyib: “Koutinyonun müqaviləsi davam edir. Yalnız 400 milyon avroluq sərbəst qalma məbləği ödənilərsə, Koutinyonu buraxa bilərik”. Qeyd edək ki, braziliyalı oyunçu Kataloniya klubuna ötən il “Liverpul”dan 150 milyon avro qarşılığında transfer olunub.

## “Nar” 4G istifadəçilərinin sayı 1 il ərzində 2 dəfədən çox artıb

Ölkənin ən gənc mobil operatoru “Nar”-ın 4G istifadəçilərinin sayı sürətlə artmaqdadır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə “Nar” 4G internetindən istifadə edənlərin sayı 110% artaraq 600 mindən çox olub. Ümumilikdə, “Nar” abunəçilərinin 25%-i yüksəksürətli 4G internetinin istifadəçisidir. Mobil operatorun 4G istifadəçilərinin sayının artmasına ölkə ərazisində yeni baza stansiyalarının sürətlə quraşdırılması, eləcə də 4G smartfon penertasiyasının artımı təsir edib. Belə ki, son 1 ildə “Nar”-ın smartfon istifadəçilərinin sayı 20% çoxalıb.




Qeyd edək ki, “Nar” 4G xidmətini paytaxtla yanaşı, bölgələrdə, şəhər və rayon mərkəzlərində də təqdim etməkdədir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bölgələrdə internet istifadəçilərinin sayı 75% artıb. “Nar” 4G istifadəçilərinin 71%-i paytaxt Bakının, 29%-i isə regionların payına düşür. Mobil operatorun 4G baza stansiyalarının təqdim etdiyi yüksəkkeyfiyyətli mobil internet xidməti nəticəsində, internet trafikinin həcmi son 1 ildə 70%-ə qədər yüksəlib.

4G keyfiyyəti ilə yanaşı, “Nar”-ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır. Limitsiz internet paketləri, müştərilərə həm internet, həm danışıq dəqiqələrini paket şəklində bir arada almaq imkanı verən tariflər “Nar” 4G istifadəçilərinin sayının artmasına təsir edib.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz. “Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Soltanova Gülsüm Namiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun İbtidai təhsil fakültəsinin II kurs tələbəsi Laçınov Sənan Yanvar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## “Barselona” və “Ayaks” yarımfinalda!

UEFA Çempionlar Liqasında 1/4 finalın cavab oyunlarına start verilib. “Barselona” İspaniyada “Mançester Yunayted”lə qarşılaşıb. Səfərdəki görüşdə 1:0 hesablı qələbə qazananan kataloniyalılar evdə də rəqibini məğlub edərək, yarımfinala yüksəlib. Kataloniyalılar bu mərhələdə “Portu” - “Liverpul” cütünün qalibi ilə üz-üzə gələcək.



Digər matçda isə “Yuventus” “Ayaks”ı qəbul edirb Hollandiyada keçirilən qarşılaşmada 1:1-lik nəticə qeydə alındığından Turin təmsilçisi növbəti mərhələyə yaxın görünsə də, hollandlar növbəti sensasiyaya imza atıblar. Turində 2:1 hesablı qələbə qazanan “Ayaks” “Real”dan sonra “Yuventus”u da ÇL-dən kənarlaşdırıb. Amsterdam təmsilçisi yarımfinalda “Mançester Siti” - “Tottenhem” cütünün qalibi ilə qarşılaşacaq.

## İtaliyanın “İl Messaggero” saytı Bakıda keçiriləcək Avropa Gənclərinin Yay Olimpiya Festivalından yazır



MENU CERCA Il Messaggero.it

**Presentata a Roma l’edizione estiva del Festival olimpico della gioventù europea di Baku**

ROMA > NEWS

*Domenica 14 Aprile 2019 di Elena Panarella e Rossella Fabiani*

È stata presentata all’**Ara Pacis**, a **Roma**, l’**edizione estiva del Festival olimpico della gioventù europea** (Eyof), il più importante evento multi-sportivo destinato ai giovani atleti europei dai 14 ai 18 anni. L’edizione estiva del 2019 si terrà per la prima volta a **Baku**, capitale dell’**Azerbaigian**, dal 21 al 27 luglio. Alla presentazione ha partecipato il **ministro** della Gioventù e dello Sport azerbaigiano, **Azad Rahimov**, che ha accompagnato tre atleti del paese caucasico alla cerimonia di accensione della Fiamma olimpica: Farid Mansurov, Karamat Huseynov e Raziya Aliyeva. La cerimonia a cui ha preso parte anche il sottosegretario alla presidenza del Consiglio dei ministri, Giancarlo Giorgetti, coincide con i cento giorni dall’inizio dell’evento sportivo. Al Festival olimpico sono attesi atleti provenienti da 50 paesi che gareggeranno in 10 sport nel primo grande evento che raccoglie diverse discipline sportive a livello europeo rivolto ai giovani

İtaliyanın nüfuzlu “İl Messaggero” qəzetinin saytında “Romada Avropa Gənclərinin Yay Olimpiya Festivalının təqdimatı keçirilib” sərlövhəli yazı yerləşdirilib. AZƏRTAC xəbər verir ki, yazıda cari ilin iyulun 21-28-də ilk dəfə Bakıda keçiriləcək Avropa Gənclərinin Yay Olimpiya Festivalının təqdimat mərasiminin paytaxt Romada, IX əsrdə dostluq və qardaşlıq simvolu olaraq İmperator Avqusto tərəfindən tikilmiş Ara Pasis muzeyində keçirilməsi diqqətə çatdırılır.

Bildirilir ki, tədbirdə Azərbaycanı Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman naziri Azad Rəhimov, MOK baş katibinin müavini Azər Əliyev və Avropa Olimpiya Komitələrinin (AOK) prezidenti Janez Koçijançiç, AOK Koordinasiya Komissiyasının sədri Corce Vizaski, İtaliya Olimpiya Komitəsinin prezidenti Ciovanni Malaqonun iştirak ediblər.

Qeyd edilir ki, tədbirdə festivalın məşəlinin yandırılması və Azərbaycana ötürülməsi, eyni zamanda, oyunların simvolu olan kiçik “zeytun ağacı”nın Azərbaycana təqdim edilməsi mərasimləri keçirilib. Diqqətə çatdırılıb ki, bu il Bakıda keçiriləcək Avropa Gənclərinin Yay Olimpiya Festivalına 50 ölkədən müxtəlif idman növü üzrə 14-18 yaşarası idmançılar qatılacağı gözlənilir. Yazıda nazir Azad Rəhimovun mətbuat konfransında və tədbirin rəsmi hissəsindəki çıxışlarına yer verilib. Nazirin iyulda keçiriləcək 15-ci Avropa Gənclərinin Yay Olimpiya Festivalına hazırlıq prosesi, görülmüş işlər və nəzərdə tutulan planlarla bağlı sualları cavablandırdığı bildirilib.

## “Barselona” Çempionlar Liqasında yeni rekorda imza atıb




İspaniyanın “Barselona” futbol klubu UEFA Çempionlar Liqasında yeni rekorda imza atıb. Klubun saytında yer alan məlumata görə, aprelin 16-da Kataloniya klubu doğma meydanda “Mançester Yunayted”i 3:0 hesab ilə məğlub edib. Ernesto Valverdenin yetirmələri bununla da Avropa qitəsinin ən nüfuzlu klub turnirində doğma meydanda məğlubiyyətsiz oyunlar seriyasını 31-ə çatdırıblar. Bu isə UEFA Çempionlar Liqasında rekord göstəricidir. Qeyd edək ki, “Barselona” Çempionlar Liqasında sonuncu ev məğlubiyyətini 2013-cü ildə alıb.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600